

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Parlament seçkiləri azad və demokratik şəraitdə baş tutacaq


4

## "İkitərəfli münasibətlərimiz uğurla inkişaf edir"


2

SƏS
№ 140 (7065)
7 avqust 2024-cü il.
Qiyməti 60 qəpik

### Prezident İlham Əliyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibini qəbul edib

# Haylar üçün ÇOX TƏHLÜKƏLİ "DÖNÜŞ"



3

### Qarabağın inciləri: Şuşanın "dürrü yekta"sı


15

### Qeysəriyyə ilə doğuş: kim uduzur, kim udur?


11

### Türkiyəli ekspert: "Ermənistan regional sülh prosesində erməni diasporundan uzaqlaşmalıdır"


2

### Bazarda saxta zeytun yağı var?


16

### Jurnalistlər sertifikasiya imtahanından keçməlidir


9

# "İkitərəfli münasibətlərimiz uğurla inkişaf edir"

## Prezident İlham Əliyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunu qəbul edib. Prezident İlham Əliyev Sergey Şoyqunun səfərinin ikitərəfli münasibətlərin gündəliyi və qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.***

Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında regionda gedən proseslərlə bağlı mütəmadi təmasların əhəmiyyətini qeyd etdi. İkitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini deyən Azərbaycan Prezidenti bunun ən yüksək və digər səviyyələrdə təmaslarda, eyni zamanda, ölkələrimiz arasında imzalanmış sənədlərin və yol xəritələrinin həyata keçirilməsi, təhlükəsizlik, nəqliyyat, energetika, hərbi-texniki, humanitar sahələrdə əməkdaşlıqda özünü nümayiş etdirdiyini vurğuladı. Prezident İlham Əliyev bu məsələlərlə bağlı mütəmadi olaraq Prezident Vladimir Putin ilə müzakirələrin aparıldığını bildirdi.

Hökumətlərarası komissiyanın fəal işlədiyini deyən dövlətimizin başçısı bu yaxınlarda Bakıda bu komissiyanın iclasının keçiriləcəyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin digər qurumları arasında da fəal təmasların olduğunu qeyd etdi.

Dövlətimizin başçısı iki ölkənin siyasi rəhbərliyi arasında qəbul olunmuş qərarların, məhz "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin müddəalarının uğurla həyata keçirilməsini məmnunluqla qeyd etdi.

Azərbaycan-Rusiya münasibətlərinin bəzi qonşu dövlətlər üçün də bir nümunə olduğunu deyən Prezident İlham Əliyev bunu Cənubi Qafqazda və daha geniş məkanda mühüm təhlükəsizlik faktoru kimi dəyərləndirdi.



Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu nümayəndə heyətinə səmimi və isti münasibətin göstərilməsinə görə minnətdarlığını bildirərək, bunun əsasında iki ölkənin dövlət başçıları arasında olan şəxsi münasibətlərin durduğunu dedi.

Sergey Şoyqu ölkələrimiz arasında regional təhlükəsizlik, hərbi-texniki, nəqliyyat, iqtisadi sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. O, ikitərəfli əməkdaşlığın gündəliyində çox mühüm məsələlərin durduğunu və onların uğurla həll edildiyini dedi. Bu xüsusda Şimal-Cənub dəhlizinin həyata keçirilməsini bunun nümunəsi kimi dəyərləndirdi və bununla bağlı üçtərəfli əsasda böyük işlərin görüldüyünü qeyd etdi. Sergey Şoyqu ölkəsinin Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesini dəstəklədiyini bildirdi.

Görüşdə "3+3" formatında əməkdaşlığın perspektivləri müzakirə olundu. Söhbət zamanı Ümummilli Lider Heydər Əliyevin xatirəsinə Rusiyada göstərilən ehtirama toxunularaq, Baykal-Amur Magistralının tikintisində Ulu Öndərin böyük rolu bir daha qeyd edildi, Prezident İlham Əliyevin bu ilin aprelində Moskvada Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə keçirilən tədbirdə iştirakının əhəmiyyəti vurğulandı.

# Türkiyəli ekspert: "Ermənistan regional sülh prosesində erməni diasporundan uzaqlaşmalıdır"

***Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması üzrə xüsusi nümayəndələrin sayca beşinci görüşündə müəyyən irəliləyiş əldə olunsa da, danışıqlar prosesinin nəticələrinə birbaşa təsir edəcək bir neçə amil var. Onlardan başlıcası İrəvan ilə Bakı arasında sülh sazişinin imzalanmasıdır.***



AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Los-Ancelesdəki sabiq baş konsulu, Türkiyənin İqtisadi Siyasətinin Araşdırılması Vəqfinin (TEPAV) eksperti Gülru Gezer ifadə edib.

Ekspertin sözlərinə görə, Türkiyə-Ermənistan gündəliyində bütün məsələlərlə yanaşı, həm də mövcudluğunun əsasını 1915-ci il hadisələri təşkil edən erməni diasporunun mövqeyi də var. Sabiq baş konsul əlavə edib: "Sirr deyil ki, Cənubi Qafqazın hüdudlarından kənarda yaşayan ermənilər Ankara ilə dialoqun və Azərbaycanla sülhün əleyhinə çıxırlar. Yeri gəlmişkən, erməni müxalifəti də bu mövqedədir".

TEPAV-ın eksperti diqqətə çatdırıb ki, bu yaxınlarda Ermənistanın baş naziri Nikol Paşinyanın istefasını tələb edən arxiyepiskop Baqrat Qalstyanın tərəfdarları ilə yanaşı, meydanlarda diaspor təmsilçisi, 1982-ci ildə Türkiyənin Los-Ancelesdəki baş konsulu Kemal Arıkanı qətlə yetirən terrorçu Hampiq Sasunyan da olub. Gezer bildirib: "Baqrat Qalstyanın diaspor ilə birbaşa əlaqələrini sübut edən daha bir fakt "Daşnaksutyun" partiyasının onun təşkil etdiyi etiraz aksiyalarını dəstəkləməsidir".

Diplomat əmin olduğunu bildirib ki, Ermənistan hakimiyyəti üçün sülh yolunda ən düzgün seçim diaspordan uzaqlaşmaqdır. Ekspert vurğulayıb: "Erməni diasporu keçmiş zamanda yaşayır və onun əməllərinin Ermənistana zərər vurduğunu etiraf etməkdən çəkinir. Nikol Paşinyan hökuməti xaricdə yaşayan ermənilərin sözlərinə qulaq asmamalı, Ermənistanın özünün maraqlarına əsaslanmalıdır. O, aydın başa düşməlidir ki, Fransa və ya ABŞ-dakı ermənilər Ermənistana köçməyəcək və diaspor ölkə əhalisinin gündəlik problemləri ilə maraqlanmır".

İrəvanın ABŞ və Fransa ilə yaxınlaşmaq səylərinə toxunan Gezer qeyd edib ki, Ermənistana silah tədarükü təkcə Bakıda deyil, Ankarada da narahatlıq doğurur. Onun sözlərinə görə, Moskvadan uzaqlaşma fonunda İrəvanın Vaşinqton və Paris timsalında regiondankənar aktorların dəstəyini almaq istəyi problemə real yanaşma kimi görünmür".

TEPAV nümayəndəsi qeyd edib: "Baş nazir Nikol Paşinyan Ermənistan ictimaiyyətinə regionda sülhün bütün faydalarını izah etməlidir. Nə Türkiyə, nə də Azərbaycan Ermənistan üçün təhlükə mənbəyi deyil, ticarətin başlanması və investisiyaların cəlb edilməsi dənizə çıxışı olmayan bu ölkə üçün güclü təkan olardı".

Türkiyənin sabiq baş konsulu Ukraynada müharibənin başa çatması ilə beynəlxalq aləmdə bütün qüvvələr balansının dəyişə biləcəyini və daha sonra Cənubi Qafqazdakı vəziyyətə kənardan müdaxilə cəhdlərinin güclənəcəyini istisna etməyib. "Ona görə də Paşinyan Azərbaycanla uzunmüddətli sülh sazişini imzalamağa tələsməlidir. Artıq Ermənistan konstitusiyasının dəyişdirilməsi yolunda müəyyən siqnallar verilib. Xarici və daxili təzyiqlərə baxmayaraq, bu addımları davam etdirmək vacibdir", -deyə türkiyəli ekspert vurğulayıb.

Gezer regionda sülhə nail olunacağı təqdirdə, həm də Ermənistanın öz iqtisadiyyatı üçün böyük dividentlər vəd edən Orta Dəhlizdə bir halqaya çevriləcəyini qeyd edib. O vurğulayıb ki, İrəvan üçün həm Bakı, həm də Ankara ilə dialoqda müsbət tendensiyanı saxlamaq vacibdir.

# "Bu münasibət etnik və dini əsasda ayrı-seçkiliyin sübutudur"

## Qərbi Azərbaycan İcması Toyvo Klaarın ölkəmizlə bağlı qərəzli fikirlərinə münasibət bildirib

"Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar 2024-cü il avqustun 4-də mətbuata verdiyi açıqlamasında Azərbaycanın daxili işlərinə qarışan və Ermənistandan qovulmuş azərbaycanlılara qarşı ayrı-seçkiliyə yol verən fikirlər səsləndirmişdir. T.Klaar regionda köçkünlük problemi və qayıdış hüququndan danışarkən bu hüququ müstəsna olaraq Azərbaycandan könüllü olaraq köçüb getmiş ermənilərə şamil etmiş və Ermənistandan qovulmuş azərbaycanlıların bu hüququnun olduğunu inkar etmişdir. Bununla kifayətlənməyən Klaar Azərbaycanın Qarabağ regionundan köçüb getmiş ermənilərinin xüsusi hal olduğunu vurğulamışdır. Göründüyü kimi, Aİ nümayəndəsi özünə insanlara etnik mənsubiyyətinə görə hüquq vermək "səlahiyyəti" icad etmişdir." Bu fikirlər Qərbi Azərbaycan İcmasının məsələ ilə bağlı bəyanatında yer alıb.

Bəyanatda, həmçinin deyilir: "Cənab Klaarın Ermənistandan zorla qovulmuş azərbaycanlılara münasibətdə sərgilədiyi bu münasibət onun özünün və təmsil etdiyi qurumun etnik və dini əsasda ayrı-seçkiliyinin sübutudur. Aİ rəsmisinin Qarabağ ermənilərinin məsələsini xüsusi vurğulaması isə bu qurumun münaqişənin həll edilməsini və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsini həzm edə bilməməsinin göstəricisidir. Bütün bunlar, eləcə də Aİ-nin Ermənistana hərbi yardım ayırması, bu ölkənin sanksiya qaçaqmalçılığı yolu ilə külli miqdarda vəsait əldə edib silahlanmaya sərf etməsinə göz yumması və Fransa kimi Aİ üzv ölkələrinin Ermənistana böyük miqdarda silah satması regionda gərginlik yaratmağa xidmət edir.

Qərbi Azərbaycan İcması Aİ rəsmisinin Ermənistandan qovulmuş azərbaycanlılara qarşı irqçi ayrı-seçkiliyini, Azərbaycanın daxili işlərinə qarışmasını və regionda gərginlik yaratmağa xidmət edən bəyanatını sərt şəkildə qınayır. İcma Aİ-dən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 1-ci maddəsinə uyğun olaraq insanların hüquq bərabərliyi prinsipinə hörmət etməyi, Ermənistandan qovulmuş azərbaycanlılara münasibətdə nümayiş etdirdiyi ayrı-seçkiliyə son verməyi və onların qayıdış hüquqlarına hörmət etməyi tələb edir".

# Haylar üçün
# ÇOX TƏHLÜKƏLİ "DÖNÜŞ"

***Ermənistanın ardıcıl olaraq Rusiyadan uzaqlaşma və Qərblə yaxınlaşma siyasəti heç də yaxşı nəticələr vəd etmir və bunu erməni əsilli politoloqlar da artıq bir müddətdir ki, etiraf edirlər. Sözsüz ki, rəsmi İrəvanın bu zamana qədər sığındığı Moskvanı deyil, məhz Qərbi seçməsi böyük qardaş saydıqları ruslar üçün xəyanət hesab olunur və bağışlanacaqlarını bundan sonra heç ağıllarına da gətirə bilməzlər. Çünki belə bir "dönüşün" bütövlükdə haylar üçün, Ermənistan dövləti üçün çox "böyük" nəticələrinin olacağını ermənilər artıq Gürcüstan və Ukrayna təcrübəsindən də görüblər. Əgər görüblərsə, başa düşməlidirlər ki, Ermənistanın Qərbə üz tutması və Rusiyadan üz döndərməsi çox təhlükəli bir "dönüş" sayılır.***




### Rusları günahkar bilmələri ilə, uğursuzluqlarında, məğlubiyyətlərində günahı Rusiyanın üzərinə atmaları ilə böyük səhvə yol verirlər

Çoxdandır erməni cəmiyyətində belə bir fikir formalaşdırılıb ki, guya Rusiya hansısa lazım olan zamanda Ermənistana dəstək olmayıb və rəsmi İrəvan buna görə də Kremldən imtina edib. Əslində isə, bunların ağ yalan olduğunu haylar özləri də, onların başbilənləri də yaxşı bilirlər. Yaxşı bilirlər ki, əvvəla, Ermənistanın hansısa addımı atdığı zaman, ələlxüsus da işğalçılıq siyasətini yürütdüyü zaman Rusiyaya güvənməsi heç bir məntiqə sığışan deyil. Sual oluna bilər ki, nəyə görə ruslar məhz ermənilərin işğalçılıq siyasətini, işğalçı addımlarını, terrorçuluğu, separatçılığı dəstəkləməlidirlər? Daha dəqiq desək, niyə ermənilər torpaqları zəbt etdikləri halda, soyqırımlar törətdikləri halda, mina terroru həyata keçirdiklərində ruslara güvənməli idilər? Məgər addımları hansısa normalara sığışırdımı ki, onlar dəstəklənsin də? Hayların qanuna zidd addımlarının dəstəklənməsinə zəmanətmi verilməli idi? Hansı zəmanət verilə bilər və ümumiyyətlə, söhbət hansı zəmanətlərdən gedir? Bəlkə Rusiya bunlara nə zamansa, hansısa zəmanəti verib və 1994-cü il atəşkəsdən sonra yaranmış status-kvonu dondurmaq niyyətlərində olan ermənilərə dəstək olacağına ümumiyyətlə, zəmanət veribmi? Qətiyyən belə bir zəmanət verilməyib və heç verilə də bilməz, çünki heç bir məntiqə belə uyğun gəlmir, baxmayaraq ki, ermənilər öz çürük məntiqləri ilə bunu hansısa şəkildə ortaya atırlar.

Digər tərəfdən də axı hayların davranışlarını kim proqnozlaşdıra bilər? Onların istənilən anda hansı istəklərinin, hansı xəyallarının peyda olacağını kim deyə bilər və hansısa qanunsuzluqlara əl atmayacaqlarına zəmanət verməkolarmı? Qətiyyən olmaz və bunu ruslar da yaxşı bilirlər. Həm də axı hayların davranışlarından asılı olmayaraq, onların nankorluğu fonunda ruslar yenə də onlara dəstək olmalıdırlarmı? Bəlkə borcludurlar? Yaxud, haylar niyə elə hesab etməlidirlər ki, ruslar onlara dəstək olmalıdırlar? Ələlxüsus da ermənilərin xəyanətkarlıqları fonunda bunu gözləmək nə dərəcədə doğrudur? Axı illərdir ruslar ermənilərə qandırmağa çalışdılar və bəyan edirdilər ki, Dağlıq Qarabağda status-kvonun əbədiləşdirilməsi mümkün deyil. Kreml çoxdandır ki, bu mesajı ermənilərə həm dolayı, həm də birbaşa şəkildə ötürürdü. Görünür, haylar bunu ya hesaba almayıblar, ya da özlərini bilməməzliyə vurublar. İstənilən halda uduzan özləri olublar və indi rusları günahkar bilmələri, yaxud da, uğursuzluqlarında, məğlubiyyətlərində günahı Rusiyanın üzərinə atmaqda böyük səhvə yol verirlər. Ümumiyyətlə, ruslardan, Rusiyadan üz döndərməkdə çox təhlükəli "dönüş" etmiş olurlar və bunun onlara baha başa gələcəyini özləri də yaxşı bilirlər.

### İşğalçılıq siyasətinə alət olmaq kimi bir maraq ola bilməz və hansısa dəstəkdən söhbətin belə getməsi ağılsızlıqdır

Məsələ burasındadır ki, hayların bu qədər nankorluqları, bu qədər xəyanətkarlıqları fonunda yenə də ruslar onları 2020-ci ildə böyük fəlakətdən xilas etdilər. Öz nankonluq ənənələrinə sadiq qalan ermənilər əslində, etiraf etməli idilər ki, Azərbaycan öz ərazilərini işğaldan azad etdiyi məqamda Rusiya məhz müharibənin dayandırılması, danışıqların aparılması təklifi ilə çıxış etməklə, bütövlükdə Ermənistanın taleyini həll etmiş oldu. İndi haylardan soruşula bilər ki, bunu da görmədilərmi? Sual oluna bilər ki, əgər Rusiya işə qarışmasaydı, müharibənin dayandırılması və danışıqlar aparılması təşəbbüsü ilə çıxış etməsəydi, üçtərəfli danışıqlar olmasaydı Ermənistanın vəziyyətinin necə olacağını təsəvvür edirlərmi? Ümumiyyətlə, bunu, ölkələrinin qarşılaşmalı olacağı fəlakəti təsəvvür edənlər həmin fəlakətin qarşısını alanları qınamaqda nə dərəcədə nankorluq etdiklərinin fərqidədirlərmi?

Ola bilsin ki, haylar nəinsə fərqində olmadıqlarını və rusların onlara etdiklərini anlamadıqlarını, dəyərləndirmədiklərini də başa düşmürlər. Amma ruslar hər şeyi çox yaxşı başa düşürlər və bilirlər ki, onların etdiklərinə dəyər verməyən ermənilər çox nankor və xaindirlər. Başa düşürlər ki, müharibədən əvvəl onlara edilən təklifləri, məsələn, 5 rayonun qaytarılması kimi bir təklifi düzgün dəyərləndirməyənlərin bundan sonra da nəyi isə dəyərləndirəcəyinə ümid etməyə dəyməz. Bilirlər ki, danışıqlar zamanı ermənilərə nəyi isə başa salmağa çalışdıqlarında buna nail ola bilmədikləri kimi, bundan sonra da onları qandırmaqda çətinlik çəkə bilərlər və ümumiyyətlə, bu, mümkünsüz olar. Hər halda, Rusiyanın məhz Ermənistanın işğalçılıq siyasətinə alət olması kimi bir marağı ola bilməz və beləliklə də hansısa dəstəkdən söhbətin belə getməsi ağılsızlıqdır.

### Ermənilər üçün siqnal hesab olunan məqamlar çox olub və təhlükəli "dönüş" haylara çox baha başa gələ bilər

Sözsüz ki, Rusiyanın ermənilərə, Ermənistana şərtsiz, heç bir əsas olmadan dəstək verməsində qətiyyən maraqlı olmadığını başa düşmək üçün böyük politologiya biliyinə ehtiyac yoxdur. Azacıq ağıl sahibi olan hansısa erməni belə başa düşür ki, hər halda, yeni Ukrayna və ya Gürcüstan yaratmaq kimi bir niyyətin də olmadığı təkzib edilə bilməz. Məsələn, ABŞ-ın Lihay Universitetinin beynəlxalq əlaqələr üzrə dosenti, erməni əsilli politoloq Arman Qriqoryan belə açıq şəkildə etiraf edir ki, ermənilər üçün siqnal hesab olunan məqamlar çox olub. O, qeyd edir ki, Rusiyanın son zamanlar Türkiyə ilə yaxınlaşması da ermənilər üçün, Ermənistan üçün siqnal olmalı idi. Görünən odur ki, ermənilərin bunu dərk etməməsini Qriqoryan öz cəmiyyətinə çatdırmaq istəyir. Həm də yanlış addımlar atılmasının, Rusiyadan üz döndərilməsinin, "dönüş" etmək niyyəti ilə səhvə yol verilməsinin nə demək olduğunu çatdırmaq fikri ilə bəzi məqamları xatırlatmağa çalışır. Politoloq Arman Qriqoryan xüsusilə vurğulayır ki, Dağlıq Qarabağda status-kvonun dondurulmasında Rusiyadan qeyd-şərtsiz dəstək gözləmək çox böyük axmaqlıq olub. Dolayısı ilə diqqətə çatdırmağa çalışır ki, hansısa dəstək gözləmək və bunu almamağa görə Qərbə üz tutmaq, ruslardan üz döndərmək axmaqlıqdır.

İndi ermənilər bu dəfə də Qərbin dəstəyini gözləyirlər və bu dəfə də belə axmaqlıq etməklə və Rusiyadan üz döndərməklə, daha təhlükəli "dönüş" edirlər. Əvvəla ona görə ki, Qərbə güvənməkdə yanlışlığa yol verirlər, çünki onlara silah-sursat verilsə də, döyüşə, müharibəyə şirnikləndirilsələr də onların əvəzində heç kim döyüşməyəcək, bununla da özləri yenə fəlakətlə qarşılaşmalı olacaqlar. Yenə də özləri-özlərini tələfata, itgilərə sürükləyəcəklər və yenə də erməni cəmiyyəti böyük bəla ilə qarşılaşmalı olacaq. Digər tərəfdən də axı Rusiya onların nankorluqlarını unudan, "dönüş" etmələrini nəzərdən qaçıran deyil və ermənilərin bu nankorluğuna görə bütövlükdə Ermənistan cəmiyyəti çavab verməli olacaq. Hər halda, haylar özləri də bilirlər ki, Kremlin məhz Ermənistanda kifayət qədər rıçaqları var və ruslar da tamamilə başqa "dönüş" yarada bilərlər. Sözsüz ki, belə bir "dönüş" də haylara çox baha başa gələ bilər. Yəqin ki, hər dəfə məhz Lavrovun, Zaxarovanın timsalında Rusiya rəsmilərinin nəyə ehyam vurulduqlarını da ermənilər başa düşə bilirlər. Çox güman ki, həmin ehyamların bir zaman hansısa təhlükələr vəd etdiyini də dərk etmək gərəkir. Əks halda, Ermənistanın nə ilə qarşılaşacağını, hansı fəlakətlərlə üzləşəcəyini, "dönüş" deyə düşündüklərinin hansı miqyasda bir bəlaya aparıb çıxardığını gözləri ilə görməli olacaqlar...

***İnam Hacıyev***

# Parlament seçkiləri azad və demokratik şəraitdə baş tutacaq

**Seçkiqabağı prosesləri təhlil edən yerli və xarici ekspertlər seçkilərə hazırlıq və namizədlərin qeydə alınması ilə bağlı hər hansı bir çatışmazlığın olmadığını qeyd edirlər**



Dünyada baş verən təlatümlər, qarşıdurmalar fonunda Azərbaycan sabitlik adası olaraq sakit və təhlükəsiz olaraq inkişafını davam etdirir. İnsanlarımız xoşbəxtdir, məmnundur. Çünki qayğılardan, problemlərdən uzaqdır. Ona görə ki, 30 illik torpaq həsrətinə, yurd nisgilinə son qoyulub. Artıq işğaldan azad edilən ərazilərimizdə aparılan genişmiqyası quruculuq, bərpa, təmir işlərindən sonra insanlar öz doğma yurdlarına qayıdırlar. Təbii ki, qürurverici, fərəh duyulan gözəl günlərimiz qabaqdadır. Bu ilin sentyabrın 1-də keçirilməsi planlaşdırılan parlament seçkiləri qələbələrimizin növbəti mərhələsi üçün yeni imkanlar yaradacaq. Azad və demokratik şəkildə baş tutacaq seçkilər qələbələrimizə yeni rəng qatacaq. Birmənalı mövqe ondan ibarətdir ki, parlament seçkilərində hüququn aliliyinin təmin olunması, seçki prosesinin azad və demokratik şəraitdə başa çatdırılması üçün dövlətimiz, o cümlədən Mərkəzi Seçki Komissiyası lazım olan bütün işləri həyata keçirib. MSK tərəfindən həyata keçirilən işlər, qəbul edilən qərarlar beynəlxalq prinsiplərə əsaslanır. Xüsusilə də "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə xüsusi seçki hesablarının açılması qaydaları haqqında", "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında", "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı təsdiq edilmiş deputatlığa namizədin müdafiəsi üçün seçici imzalarının toplanması və dairə seçki komissiyasına təqdim edilməsi qaydaları haqqında" təlimatlar, "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi Qaydaları" və digər qərarlar seçicilərin və namizədliklərini irəli sürən şəxslərin maraq və mənafeylərinin yüksək səviyyədə təmin olunmasına, eləcə də seçkilərin azad və demokratik şəkildə başa çatdırılmasına hesablanıb.

## MSK nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir

Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) fərqli statuslu seçki iştirakçıları üçün müxtəlif istiqamətlər üzrə maarifləndirmə layihələri intensiv şəkildə reallaşdırılır. MSK-nın maarifləndirmə proqramı çərçivəsində ümumrespublika miqyaslı növbəti layihəyə - aşağı seçki komissiyalarının üzvləri üçün treninqlər olub. MSK-nın nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlığı şəraitində 22 il bundan əvvəl - 2002-ci ildə əsası qoyulan treninq layihəsi ilbəil təkmilləşdirilib, xüsusilə 2008-ci ildən sonra yeni forma və məzmun əlavə olunmaqla daha da genişləndirilib. MSK-nın mühüm əhəmiyyət verdiyi və daim məxsusi diqqət yetirdiyi treninqlər, bir qayda olaraq, ölkəmizdə keçirilən bütün seçkilərdə təşkil edilməklə, dairə və məntəqə seçki komissiyaları üzvlərinin məlumatlılığının, bilik və bacarıqlarının, o cümlədən işgüzar və peşəkar vərdişlərinin yüksəldilməsində müstəsna rol oynayır. MSK tərəfindən ardıcıl olaraq treninqlər təşkil olunur. Bu proses seçkilər gününə qədər davam etdiriləcək. Layihənin "Trenerlər üçün treninq" adlı birinci mərhələsinə avqustun 5-dən start verilib və müxtəlif əyani, metodiki, habelə yardımçı vəsaitlərdən istifadə olunmaqla, tam praktiki məşğələlər şəklində təşkil edilib. Beş gün fasiləsiz keçiriləcək bu treninqlərə ölkə üzrə 125 seçki dairəsi dairə seçki komissiyasının hər birindən iki təmsilçi olmaqla, ümumilikdə 250 yerli trener cəlb olunur. Treninqlər zamanı iştirakçılara seçki günü məntəqə seçki komissiyası üzvlərinin rol və vəzifələri, seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, seçki günü müstəsna hallar, səslərin sayılması və səsvermənin nəticələri müəyyənləşdirilərək rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün prosedurlar barədə aydın və əhatəli məlumat verilir. Seçki günü prosedurları, səsvermə hərəkətləri və qarşıya çıxa biləcək müstəsna hallar izah edilərkən praktiki məşğələlərə geniş yer verilir, müxtəlif məqamlar əyani şəkildə səhnələşdirilərək təqdim olunur və yaranan suallar yerindəcə cavablandırılır.

Treninq layihəsinin avqustun 12-dən başlanacaq ikinci mərhələsi məntəqə seçki komissiyalarının bütün üzvlərini əhatə etməklə, seçki dairələri üzrə məntəqə seçki komissiyalarının sayına uyğun olaraq, 3-10 gün davam edəcək. Bu mərhələnin də maksimum effektiv, praktiki və informativ olması üçün treninqlərin MSK-nın Treninq qrupu tərəfindən hazırlanan cədvəl əsasında kiçik qruplarla - təqribən 40 nəfərədək aşağı seçki komissiyası üzvünün iştirakı ilə keçirilməsi nəzərdə tutulur.Həm təlimlərdə istifadə etmələri, həm də seçki günü prosedurları ilə yaxından tanış olmaları məqsədilə treninqlərə cəlb edilən bütün iştirakçılar MSK-nın hazırladığı "Seçki günü üçün yaddaş" kitabçası, səsvermənin nəticələrinə dair protokol nümunəsi, habelə digər əyani və metodiki vəsaitlərlə təmin olunacaqlar.Treninq layihəsi, ümumilikdə 40 minə yaxın aşağı seçki komissiyası üzvünü əhatə edir.

## Əhali seçkilərlə bağlı tam məlumatlıdır

Seçkilərin yüksək səviyyədə təşkil olunması onu bir daha deməyə əsas verir ki, ümumxalq tədbir azad və demokratik şəraitdə baş tutacaq. Seçicilərin tədbirlə bağlı geniş və ətraflı bilgilər əldə etmələri üçün MSK müvafiq dövlət qurumları ilə bilikdə Bakıda və bölgələrdə görüşlər keçirir. Mərkəzi Seçki Komissiyası (MSK) müxtəlif statuslu seçki iştirakçılarının maarifləndirilməsi proqramı çərçivəsində "Seçki günü üçün yaddaş" kitabçası hazırlayıb. Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən bildiriblər ki, layihə məntəqə seçki komissiyaları üzvlərinin seçki günü prosedurları barədə məlumatlılığının artırılması və fəaliyyətlərinin daha da təkmilləşdirilməsi məqsədi daşıyır.Nəşrdə məntəqə seçki komissiyaları üzvlərinin seçki günü rol və vəzifələri, seçki məntəqəsinin açılması, səsvermə saatlarında tədbirlər, səsvermə prosesində müstəsna hallar, seçki məntəqəsinin bağlanması, səslərin hesablanması, səsvermənin nəticələri müəyyənləşdirilərək rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün prosedurların aydın, müfəssəl və əhatəli izahı verilib.Seçki Məcəlləsinin müddəaları, Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi təlimat, izah, qayda və digər normativ xarakterli sənədlər əsasında hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası dairə və məntəqə seçki komissiyalarının üzvlərinə, müşahidəçilərə, habelə maraqlanan seçki subyektlərinə çatdırılıb.

Seçkiqabağı prosesləri təhlil edən yerli və xarici ekspertlər seçkilərə hazırlıq və namizədlərin qeydə alınması ilə bağlı hər hansı bir çatışmazlığın olmadığını qeyd edirlər. "Milli Məclisə növbədənkənar seçkilərdə müşahidəçi qismində iştirak etmək üçün indiyədək ümumilikdə 18 min 467 yerli müşahidəçi akkreditasiyadan keçib". Bu sözləri Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın avqustun 5-də keçirilən iclasında söyləyib.O bildirib ki, bu müşahidəçilərdən 5588 nəfəri Mərkəzi Seçki Komissiyasında, 12 min 879-u isə dairə seçki komissiyalarında qeydiyyatdan keçib. M. Pənahov onu da bildirib ki, növbədənkənar parlament seçkilərini müşahidə etmək üçün 9 beynəlxalq qurumdan və 27 ölkədən 101 nəfər akkreditə olunub. Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bildirib ki, Milli Məclisə növbədənkənar seçkilərdə iştirak üçün 1508 nəfər müraciət edib. 1462 nəfərin namizədliyinin irəli sürülməsi təsdiqlənib: "Deputatlığa namizədliyini irəli sürənlərdən 1420 nəfəri imza vərəqəsi alıb, 1197 nəfər isə imza vərəqələrini qaytarıb, 950 nəfərin deputatlığa namizədliyi qeydə alınıb".

Mərkəzi Seçki Komissiyasının "Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı"nda öz əksini tapan müddəalara görə, parlament seçkiləri ilə əlaqədar seçkiqabağı təşviqatın aparılmasına avqustun 9-dan başlanılacaq və proses avqustun 31-i saat 08:00-a kimi davam edəcək. Seçkiqabağı təşviqatın aparılması qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri tərəfindən həyata keçirilə bilər. Seçki Məcəlləsinə əsasən, təşviqat kampaniyası səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır.

Bir sözlə böyük qələbələri, uğurlu nailiyyətləri ilə parlaq zəfərlər yazan Azərbaycan parlament seçkilərini azad və demokratik şəraitdə keçirməsinə nail olmaqla ənənəsinə sadiq olduğunu nümayiş etdirəcək.

***İLHAM ƏLİYEV***

# Qadın və cinayət:
## biz tək özümüz üçün yaşamırıq

Qadın və cinayət. Bir-birinin əksi olan bu məfhumlar təəssüf ki, çox zaman bir araya gəlir. Qadın cinayət törədir. Lakin bunu necə bacarır, necə həyata keçirir, bax maraqlı olanı da budur. Bizim mentalitetə yad olan qadın və cinayət məfhumlarına rast gələndə təbii ki, düşünməyə, araşdırmağa ehtiyac duyursan. Necə olur ki, nənə-analarımızın gecəli-gündüzlü söhbət və tövsiyəsi, tərbiyəsi qarşılığında biz cinayətkar oluruq? Necə olur ki, anamızın o müqəddəs südü ilə iliyimizə işləyən qadınlıq zərifliyini, ucalığını, incəliyini, munisliyini zora, gücə, əliəyriliyə, dələduzluğa, möhtəkirliyə çevirib cinayət törədir, həbsxana qapılarını üzümüzə açırıq? Necə olur ki, analarımızın o dəruni söhbətlərini dinlədikcə ailə, ana olmaq, körpəmizi sevə-sevə böyütmək kimi qurduğumuz ülvi xəyalları bir səhvlə məhv edirik... Dəyərmi görəsən hansısa dünya malı, yaxşı geyinmək, yaxşı qidalanmaq, yaxşı evlərdə yaşamaq, qonşudan geri qalmamaq xətrinə bu munis hisslərdən məhrum olmağa? Dəyərmi? Biz bu əməllərlə nələri itiririk, bax bunun fərqində olan varmı bu qadınlar arasında? Yəni bir cinayəti törədib həbsxana divarları arasında bir neçə il yaşadıqdan sonra real həyata necə qayıdır insan? Sən yenədəmi o sənsən? Bax bu sual o qədər maraqlı gəlir ki, insana...

Təəssüf ki, qadın cinayət də törədir, həbsxanaya da düşür, hətta orada uşaq da dünyaya gətirir. O məsum uşaqlar isə məhkum olurlar. Bu barədə danışaq...









### Biz tək özümüz üçün yaşamırıq

Zamanla həyat bizə öyrədir ki, biz tək özümüz üçün yaşamırıq və yaşamamalıyıq da. İstər cəmiyyətimizin kişi, istərsə də qadını olsun, qulaqlarımıza hakim kəsilən söz o olub ki, elə yaşamalısan ki, səninlə heç kim utanmasın. Yəni, ilk növbədə, bağçada, məktəbdə, məhəllədə, sonra universitet, iş həyatında, daha sonra ailədə, ümumilikdə cəmiyyətdə özünü elə aparmalı, elə hərəkət etməlisən ki, utandırıcı olmayasan. Bəli, bizim tərbiyəmizin bünövrəsində bu amillər dayanıb həmişə. Səhv hərəkətimiz qınaq olunub, valideynlərimizin, müəllimlərimizin, qonşularımızın etirazına, tənbehinə çevrilib. Beləliklə də xarakterimizə doğru olmaq, düzgün yaşamaq, düz yolla getmək kimi keyfiyyətlər sirayət edib. Hələ xüsusilə qızların tərbiyəsi Azərbaycan ailəsində bir başqa xətt təşkil edib həmişə. Onlara ismət, abır-həya, utancaqlıq aşılanıb. Onlara böyüyün-kiçiyin yerini bilmək, həddini aşmamaq, atanın, qardaşın, həyat yoldaşının yolunu gözləmək, hörmətini saxlamaq, qulluğunda durmaq kimi ailə dəyərlərimizi özündə ehtiva edən hisslər aşılanıb. Ən əsası isə qızlarımız ailələrimizdə ana olmağa hazırlaşdırılıb. Onlara ana olmağın sirləri açıqlanıb. Bu şərəfli adın ülviliyi, onun böyüklüyü, eyni zamanda çətinliyi öyrədilib. Bir sözlə, bizə ailələrimizdə "sən tək özün üçün yaşamırsan, sən sabah bir ailənin, bir cəmiyyətin fərdi olacaqsan" deyiblər. Elə yaşa ki, hərəkətindən heç kim utanmasın, söyləyiblər...

### Məhkum və məsum uşaqların monoloqu

Ay ana, bətnində mən ola-ola cinayət törətdin. Məni də özünə yoldaş etdin. İkimiz bir arada törətdik o cinayəti. Çünki mən sənin canından ayrılmamışdım, dünyaya gəlməmişdim. Mən doğulduqdan sonra ayrıca şəxsiyyətə çevriləcəkdim, hüquqlarım olacaqdı. İndi tək sənə məxsusam. Ana, sənin həbsxanaya düşməyinlə, məhkum olunmağınla tək özün deyil, bətnindəki mən də məhkum oldum. Mən də sənin kimi məhbusam. Baxmayaraq ki, mən məsum, günahsızam, lakin məni dünyaya gətirəcək varlığın-sənin günahlarının qurbanıyam. Məni dünyaya gətirəcək sənin tək özün üçün yaşamadığını dərk etməməyinin əzabını çəkirəm.

Məni nə üçün buralara gətirib çıxarmısan, ay ana? Mən məhkum ananın övladı olmaq istəmirəm. İstəməzdim ki, mənim anam oğurluq, dələduzluq etsin. Narkotik, spirtli içki qəbul edən, onu satan olsun. Axı bu, sabah mənim kimi yüzlərlə körpənin ölümü, sağlamlıq imkanları məhdud şəkildə doğulması deməkdir. Ay ana, ya məni seçərdin, ya da o yolu. Nə üçün məni də özünə yoldaş etdin. Mən nə üçün həbsxanadakı qadının bətnində doğum günümü gözləməliydim. Mən nə üçün digər anaların bətnindəki uşaqlartək parklarda, xiyabanlarda, açıq, təmiz havada gəzməməliydim. Bilirsən ürəyim nələr istəyir? Sənin ən ləziz yeməkləri yeməni, qanınla qanıma ötürməni istəyir. Mən nə üçün həbsxanada bişirilən eyni yeməklərlə hər gün qidalanmalıyam?

Mən öz evimizdən doğum evinə getmək istəyirdim, həbsxanadan yox. Atamın xəstəxana qarşısında bizi gözləməsini istəyirdim, həbsxana işçilərini başım üzərində görmək istəmirdim. Xəstəxanadan öz evimizə getmək istəyirdim, həbsxanaya yox. Mənimlə bərabər xəstəxanadan çıxan uşaqları gördünmü, ana? Ana-atalarını da gördünmü? Mənim onlardan fərqim nədir? Nə üçün onlarla elə oradaca yollarımız ayrıldı?

Ay ana, mən süd istəyirəm. O südü ki, təmiz, saf ola. İçində nə narkotik, nə spirt olmaya. O südü istəyirəm ki, tərkibi minerallarla deyil, mənəviyyatla zəngin ola. Oğurluq edən əllərdən, dələduzluq edən bədəndən, başqasının ailəsini dağıdan, haqqını yeyən, ömrünü yarımçıq qoyan, mənim kimi körpələri gözüyaşlı, ata-anasız edən ruhdan süzülən südü istəmirəm.

***Ardı Səh. 6***

Əvvəli Səh. 5

# Qadın və cinayət:
## biz tək özümüz üçün yaşamırıq

Mən qoynundan çiçək ətri gələn ananın qoxusunu çiyərlərimə çəkmək istəyirəm. Qan qoxusunu, çirkab qoxusunu deyil. Mən dilinə yalan, riyakarlıq gəlməyən ananın laylalarını dinləmək istəyirəm, kimlərisə yalanları ilə aldadan, yoldan çıxaran ananın deyil.

Kaş ki, dilim olardı, kaş ki, gücüm çatardı, nə südünü əmərdim, nə qoxunu alardım, nə də səninlə burada bir saniyə qalardım. Mən bu qədər zülmə tabeyəmmi? Elə bilirsən ki, bununla hər şey bitəcək? Günahlarına görə cəzanı alıb həyata əvvəlki kimi qayıda biləcəksən? Bəlkə də sən qayıdacaqsan, bəs mən? Mənə bağçada, məktəbdə, məhəllədə məhkumun övladı deməyəcəklərmi? Sənin bir səhvin mənim ömürlük cəzam, başıaşağılığım, dili qısalığım olmayacaqmı? Kaş ki heç doğulmazdım, kaş ki sənin övladın olmazdım...

***

Bəli, həyatımızda məhkumluqda doğulan, məhbusluğa gözlərini açan, lakin dünyaya gələn bütün körpələr kimi məsum olan uşaqlar var. Nədir onların günahı? Nə üçün başqa uşaqlardan fərqli olaraq məhkumluqda anadan doğulurlar? Nə üçün gözlərini məhbusluğa açırlar? Bu, bir alın yazısıdırmı? Yoxsa həm özünün, həm də övladının alın yazısını etdiyi cinayətlərlə dəyişdirən qadınlarımızın bağışlanmaz səhvidir? Bu barədə söhbət açmağa həqiqətən böyük ehtiyac var.

### Kimdir günahkar?

Nədir o körpələrin günahı? Onlar nə üçün məhkum olmalıdırlar? Nə üçün məhbus həyatı yaşamalıdırlar, nə üçün məhbus qadının dünyaya gətirəcəyi varlıq olmalıdırlar? Heç qadınlarımız bu barədə düşünürlərmi? Düşünürlərmi ki, mən hamiləyəm, bir neçə aya uşaq dünyaya gətirəcəyəm. Və yaxud da irəlidə ailə həyatı qurub, ailə, uşaq sahibi olacağam. Düşünürlərmi? Düşüncələri cinayətə meyillənəndə, əlləri oğurluğa uzananda, dələduzluq fikirlərinə hakim kəsiləndə, ayaqları onları narkotik alverinə-kimlərinsə ölümünə fərman verməyə aparanda qadın olduqlarını fikirləşirlərmi?

Qadın ürəyi həssas olur, o necə adam öldürə bilir? Qadın zərif məxluqdur, o necə risklərə gedib oğurluq edə bilir? Qadın özünə necə yaraşdırır ki, övladlarına tərbiyə verəcək dilindən dələduzluq etməsi üçün yalanlar çıxır? Onu bütün bunlara vadar edən nədir? Yuxarıda buna cavab tapmağa çalışmışıq. Əlbətə ki, bu sualın cavabı o qədər əsassız amillərə bağlıdır ki, dərindən düşünən qadın özünü və gələcəyini utanca çevirəcəyi övladını o amillərdən asılı etməz. Onu cinayət etməyə meyilləndirən hissləri içində boğa, o hisslərlə mübarizə apara bilər.





Qadın heç də zəif məxluq deyil, o, yeri gələndə kişidən də güclüdür. Həm də bu güc tək fiziki deyil, həm də mənəvidir. Qadın analıq hisslərinə, övladına o qədər bağlıdır ki... Heç olmasa bu iki gözəl hissin xətrinə cinayət törətməyin, əziz qadınlar.

### Kişilər, sözüm sizədir

Qadınların cinayət törətməsində onlardan çox, kişilər günahkardırlar. Əgər bu gün qadın cinayətindən danışırıqsa, bu məsələyə toxunmamaq yanlış olar. Qadınları cinayət etməyə çox halda kişilər sövq edir, bu, faktdır. Onların qadınlığından-diqqət çəkməməsindən, geyimlərinin uyğunluğundan, dillərinin şirinliyindən yetərincə istifadə edirlər. Qadınları öz iyrənc əməllərinə alət edirlər. Bəzən isə kişilərin özləri qadınlara xəyanətləri-aldatmaları, yalan danışmaları, artıq-əskik hərəkətləri ilə onların cinayət törətməsinə səbəb olurlar.

Kişilər, sözüm sizədir. Belə etməyin. Bəzən sizi sevən, əsiriniz olan, bəzənsə ehtiyacı olan, övladının bir günlük çörəyi üçün sizə ümid edən qadınlardan bu məqsədlə istifadə etməyin. Axı sizləri də bir qadın dünyaya gətirib. Evinizdə həyat yoldaşınız var, qızlarınız böyüyür. Onları düşünün, ətrafınızdakı bütün qadınlara onlara baxdığınız gözlə baxın.

Əslində kişilər qadınların qoruyucusudur. Qadınları qoruyun. Onları öz alətinizə çevirmək istəyəndə analığını düşünün. Gözü yolda, həyatda olan övladlarını fikirləşin. Bəlkə o qadın bir səhv yoldadır, onu bu yoldan qaytarın. Ona yeni bir həyat verin. Bu, həm sizin cəmiyyətimizə, milli mentalitetimizə töhfəniz, həm də Allah qarşısında dəyəriniz olar.

### Statistik göstəricilər qadın cinayəti ilə bağlı nə deyir

Bəzən baş verən hadisələrin hər birinə "alın yazısıdır",- deyib özümüzə təsəlli verməyə çalışırıq. Lakin başımıza gələn hadisələrin hamısı alın yazısıdırmı? Bir qadının cinayət törətməsi onun alın yazısı deyil. Həyat yolunu düzgün seçməməsidir. Sosial şəbəkələrdə məhkum qadınların videoları-söhbətləri, etirafları ilə qarşılaşıram. Aşağıdakı rəyləri oxuyuram. Görürəm ki, etdiyi cinayətə görə onu günahsız saymayanlar, günahkar sayanları hələ qınayanlar da var. Məsələn, dünən insanlardan külli miqdarda pul alıb onların işə düzəlməsinə "köməklik" göstərən, sonda işin üstü açılanda cinayət məsuliyyətinə cəlb edilən bir qadının videosuna baxırdım. Günahlarını boynuna alırdı, peşmanlığını vurğulayırdı. Lakin rəylərdə onu heç də günahkar hesab etməyən qadınlarımız da var idi. Kimisi "uşaqları üçün edib" deyirdi. Kimisi qadını atan həyat yoldaşını qınayır, "düz eləmir, o puldan o da yeyib" yazırdı. Kimisi qayınanasını qınayırdı. Lakin əsl qınaq mənbəyi cinayətkar olmalıdır. Biz ictimai qınaqla qadınlarımızı səhv yoldan çəkindirə bilərik.

Kaş ki ümumiyyətlə, cinayət olmasın. Qadınlarımız xüsusilə çirkin işlərin içində olmasın. Son illər qadınların törətdiyi cinayətlərlə bağlı ölkəmizin statistik göstəricilərinə də nəzər saldım. Maraqlı faktlarla qarşılaşdım. Cinayət törətmiş qadınların sayı son 20 ildə ən yüksək göstərici olaraq 2005-ci ildə 2520, 2010-cu ildə 2318 nəfər olmuşdursa, sonrakı illərdə azalan xətt müşahidə olunur. Belə ki, 2019-cu ildə bu hal 1039, 2020-ci ildə isə 869 olmuşdur. Qeyd olunan illərin hər birində oğurluq, dələduzluq, xuliqanlıq, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi kimi cinayət növləri üstünlük təşkil edir. Belə ki, 2020-ci ildə qadınlarımız tərəfindən 102 oğurluq, 98 dələduzluq, 34 xuliqanlıq, narkotik vasitələrlə bağlı 83 cinayət törədilmişdir. 2020-ci ildə törətdiyi cinayətə görə 399 qadın həbs olunmuşdur.

2022?ci ildə 1227, 2023-cü ildə 1299 qadın cinayət törədib. Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, bu ilin ilk 6 ayı ərzində cinayət törətmiş şəxslərin arasında qadınların xüsusi çəkisi 5,3 faizdir. Məlumata görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə cinayət törətmiş qadınların sayı 10,0 faiz artıb.

Bizim adət-ənənələrimizdə qadının polis, məhkəmə, prokurorluq orqanlarına ayağının dəyməsi böyük qüsur hesab edilib. Qadın nədir, həmin strukturlara getdi nədir, deyilib. Buna görə də çox təəssüf edilməli haldır ki, bizim qadınlar sorğuya çəkilir, həbs olunur. Bu qadınlar arasında həbsxanada körpəsini dünyaya gətirənlərin də olduğunu nəzərə alsaq, yenə də çox təəssüflər olsun...

**_Mətanət Məmmədova_**

---

# Ermənistanın qatıldığı təhlükəli oyunlar nələrə səbəb ola bilər?

"44 günlük vətən müharibəsi bitdikdən sonra Azərbaycan sülhün əldə olunması üçün bütün mümkün alətləri işə saldı və demək olar ki, sülhü ən çox istəyən tərəf kimi çıxış edir".

Bu sözləri SİA-ya açıqlamasında deputat Naqif Həmzəyev deyib. "Ötən illər ərzində çox təəssüflər olsun ki Ermənistan dəfələrlə təxribata əl atdı,danışıqlar prosesini yubatdı,müxtəlif moderatorların və müxtəlif güclərin dəstəyi ilə bu görüşləri öz xeyrinə dəyişmək istədi. Nəhayət ki 2024-cü ildən başlayaraq Azərbaycanın yaratdığı yeni reallıqları azaciq da olsa dərk edən Ermənistan heç bir vasitəçi olmadan Azərbaycanla-Ermənistan arasında olan danışıqların faydalı olacağını qənaətinə qəldi və bunun nəticəsi olaraq artıq biz Ermənistan-Azərbaycan sərhədinin 12 km-nin delimitasiya və demarkasiyanı razılaşdırdıq. İşğal altında olan dörd kəndimizi qeyri-şərtsiz Azərbaycana qayıtmasını reallaşdırdıq",- deyə deputat bildirib.

Həmçinin də deputat əlavə edib : " Bugün isə digər anklav olmayan kəndlərin qayıtması məsələsi müzakirə edildi və sərhədlərin delimitasiya-demarkasiya məsələsini uğurla davam etməsi üçün xüsusi komissiyalar işləyirlər bununla bağlı da əsasnamənin şərtləri həyata keçirilməkdədi. Amma təəssüflər olsun ki bu müddət ərzində əldə edilmiş bu uğurların davamını görə bilmək üçün Ermənistanı bu proseslərdən çəkindirmək və Ermənistanı silahlandıraraq daha da cəsarətləndirmək istəyən qüvvələr də tapıldı. Bu qüvvələr bu müddət ərzində daha da aktiv şəkildə Ermənistana dəstək olmağa başladılar. Ermənistandan da çox erməni mövqeyi ortaya qoydular və bu da birbaşa olaraq sülhə qarşı təhdiddir və region üçün böyük təhlükə doğurur.



Onsuzda 30 il ərzində Ermənistan işğalçı və təcavüzkar siyasət həyata keçirərək bir milyon azərbaycanlını öz dədə-baba yurdlarından didərgin düşməsini həyata keçirtmiş və bütün tarix azərbaycanın dədə-baba torpaqlarına, o cümlədən də Qarabağ və Şərqi Zəngəzuru talan etmiş və darmadağın etmişdir. Bu dörd il ərzində Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevrilə bilir və təxirəsalınmaz işlər həyata keçirdir- quruculuq abadlıq işləri dünyanın gözü qarşısında reallaşdırılır. Biz şükürlər olsun ki keçmiş məcburi küçkünləri öz dədə-baba yurdlarına qayıtmasını təmin edə bilmişik. Biz hərgün köç xəbərləri eşidirik və sevinirik və bu proses günü-gündən daha da sürətlə həyata keçirilir, bütünlükdə Azərbaycan dövlətinin gücü hesabına ali baş komandan Prezident İlham Əliyev şəxsi iradəsi və istəyi hesabına uğurla həyata keçirilməkdədir və dövlətimiz görürük ki bu məsələlərdə çox qətiyyətlidir.

Ancaq təssüflər olsun ki, sülhün əldə edilməsini Ermənistan istəmiş kimi özünü göstərsə də reallıqda o sülhün həyata keçirilməsini istəmir,çox təhlükəli oyunlara baş qoşur, müxtəlif güclər arasına manipulyasiya edir gücləri,qarşı-qarşıya qoymaq istəyir , Cənubi Qafqazda heç vaxt burda olmamış kənar gücləri gətirməklə Rusiya asılılığından xilas olmaz istəyir və nəticə etibarilə region üçün yeni təhlükəlipyunlar oynamaqdadır.

Ancaq Azərbaycan öz mövqeyində qətidir və nə olursa olsun Cənubi Qafqazda sülhün əldə olunmasına nail olacaqdır və Ermənistanı da bu təhlükəli oyunlarından çəkindirəcəkdir və biz tezliklə sərhədlərin delimitasiya-demarkasiya prosesini davam etdirəcəyinə şahid ola biləcəyik, eyni zamanda Zəngəzur koridorunun açıq olması prosesinə şahid ola biləcəyik, həmçinin Ermənistan nəhayət ki özündə cəsarət taparaq öz ana konstitusiyasına dəyişiklik edərək Azərbaycanın da Ermənistana da ərazi iddialarından əl çəkəcəkdir. Biz ümid edirik ki biz uzunmüddətli bir sülhə nail ola biləcəyik "- deyə deputat əlavə etdi.

**Azərbaycanın ərazilərini öz istəkləri və qondarma qurumun, eləcə də İrəvanın təhriki ilə tərk edən və Ermənistana üz tutan ermənilərin ərköyünlükləri, davranışları artıq erməni cəmiyyətini təngə gətirib və bu, onların özlərinə məxsus mətbuat səhifələrində də öz əksini tapır. Görünən odur ki, özlərini məcburi köçkün kimi qələmə verənlər Ermənistan qanunlarına əməl etməməklə, digərlərinin də hüquqlarını pozmaqla özlərinə qarşı ikrah hissi doğurublar və artıq qətiyyən erməni cəmiyyətində xoş qarşılanmırlar. Əksinə, mövcud vəziyyətdən istifadə edərək, eləcə də qondarma qaçqın statuslarını gözə soxaraq, primitiv manipulyasiya etdiklərini Ermənistanda hamı çox yaxşı başa düşür.**




# Alətə çevrilənlərdən PRİMİTİV MANİPULYASİYA

## Alətə çevrilən ermənilər bütövlükdə erməni cəmiyyətini də bezdirib

Azərbaycana məxsus olan torpaqlarda, Qarabağ iqtisadi rayonunun ərazilərində məskunlaşmış, onillər boyu yaşamış, amma 44 günlük müharibədən və rüsvayçı məğlubiyyətlərindən sonra ərazilərimizi tərk etmiş və Ermənistana üz tutmuş ermənilər çoxdandır ki, könüllü olaraq Ermənistan müxalifətinin alətinə çevrilib. Alətə çevrilən bu kütlənin qanunsuz, ərköyün davranışları təkcə Paşinyan hakimiyyətini deyil, bütövlükdə erməni cəmiyyətini bezdirib və bunun da səbəbi bəllidir. Bəlli olan odur ki, özlərinin guya qaçqın olduqlarını ortaya atanlar, əslində, özlərinə məxsus olmayan torpaqları, həm də öz xoşları ilə tərk etdiklərini elə bil bilmirlər, yaxud unudublar. Amma təkcə onlar deyil, bütün haylar, eləcə də bütün dünya ictimaiyyəti belə yaxşı bilir ki, bizə məxsus olan Qarabağ ərazilərini könüllü şəkildə tərk edənlər Ermənistana müvəqqəti sığınacaq yeri kimi üz tutublar. Məsələ burasındadır ki, onlar sığınacaq bilərək üz tutduqları Ermənistana hələ də sağmal inək kimi baxmaqda davam edirlər. Elə hesab edirlər ki, Ermənistan hökuməti onları daim hər cəhətdən, ələlxüsus da maddi baxımdan təmin etməli, nazları ilə sonsuza qədər də oynamalıdır. Artıq çox açıq-aşkar şəkildə hiss olunur ki, təkcə hökuməti deyil, eləcə də yerli vətəndaşları da özlərinə borclu hesab edirlər və bunu gizlətmirlər də. Onlar elə hesab edirlər ki, Ermənistan vətəndaşları, sadəcə olaraq, onları qucaqlarında gəzdirməyə, eləcə də onların çox vaxt kobudluq, özbaşınalıq, qanunsuzluq və hörmətsizliklə təzahür edən bütün iyrəncliklərinə dözməyə borcludurlar. Təbii ki, belə düşüncə və davranışlar erməni cəmiyyətində kəskin şəkildə narazılığa səbəb olub və indi Ermənistana məxsus olan mətbuat səhifələrindən də görürük ki, belə həyasızlıqların məhz primitiv manipulyasiya olduğu çoxdan qəbul olunub. Çünki manipulyasiyanın nə və necə olduğunu haylar, Ermənistan vətəndaşları lap əvvəldən çox yaxşı bilirlər və dəfələrlə istifadə də ediblər. İndi bizim ərazilərimizi tərk edənlərin manipulyasiya etmələrini də yerli haylar ilk addımlarından belə başa düşüblər və ikrah hissi də elə lap əvvəldən yaranıb.

## Əsassız iddialarını ortaya atmaqla özlərinin əsl üzlərini, simasızlıqlarını, hiyləgərliklərini göstərmiş olurlar

Ermənistan müxalifətinin əlində olan media indi məhz Qarabağdan öz xoşları ilə köçənləri fəal şəkildə müzakirəyə çıxarıb və alət kimi istifadə etməkdədir. Xüsusən də Köçəryanın, eləcə də Sarkisyanın "qidalandırdığı" media və sosial şəbəkələrin erməni seqmenti guya məcburi köçkünlərin halından narahat olunduğu barədə daş atıb baş tuturlar. Onlar təkcə Ermənistan hakimiyyətini deyil, bütövlükdə erməni cəmiyyətini günahlandırırlar. Hadisələri elə təqdim edirlər ki, guya Qarabağdan Ermənistana üz tutan ermənilərə qarşı çoxsaylı təhqirlər var. Guya onlara qarşı hörmətsizlik edilir və düşmən münasibət göstərilir. Deyilənlərdən belə çıxır ki, guya Ermənistanda onlara qarşı düşmənçilik edirlər. Doğrudanmı belədir, yoxsa yenə də cinayətkar rejim öz ənənəsinə uyğun olaraq hiyləgərcəsinə gediş etməkdədir? Əlbəttə ki, müxalifətin, cinayətkar rejimin nəzarətində olan istər media səhifələri, istərsə də sosial şəbəkələr guya məcburi köçkün sayılanların əsassız iddialarını ortaya atmaqla özlərinin əsl üzlərini, Sarkisyanların, Koçaryanların simasızlıqlarını, hiyləgərliklərini göstərmiş olurlar. Eyni zamanda, onların manipulyasiyaya əl atdıqları da özünü göstərmiş olur, çünki mənasız, əsassız iddialara istinad etməklə hay-küy qoparmaları hər şeyi bəlli edir.

## Elə hiyləgərcəsinə manipulyasiyalar edirlər ki, hiyləgərləri özlərini belə heyrətləndirir və bezdirir

Şübhəsiz ki, elə Ermənistan ictimaiyyəti özlərini məcburi köçkün, qaçqın kimi qələmə verənlərin heç də məcburi köçkün və qaçqın olmadıqlarını çox yaxşı bilir. Bununla belə onlar mütəmadi olaraq, həm İrəvanın və digər Ermənistan şəhərlərinin küçələrində, həm də sosial şəbəkələrdə özlərini məcburi köçkünlər kimi sırımağa çalışanların əsassız iddiaları ilə qarşılaşırlar. Həyasızlıqlarından da artıq Ermənistan ictimaiyyəti cana doyub. Ələlxüsus, ölkələrinin müstəqillik illərində onların saxlanması, nisbətən daha tox, daha doymuş vəziyyətdə və təhlükəsiz yaşaması üçün çəkilən xərclərin böyük hissəsinin Ermənistanın dövlət büdcəsi hesabına həyata keçirildiyini unutduqları yerli erməniləri hədsiz dərəcədə qıcıqdırıb və onlara qarşı nifrətə kökləyib. Ən çətin anlarında, daha dəqiq desək, ötən əsrin 90-cı illərinin əvvəllərində son qəpik-quruşlarına qədər, son tikə çörəklərinə qədər onlara verənlər indi qarşılaşdıqları ənənəvi erməni həyasızlığına özləri də dözə bilmirlər. Azərbaycan ərazilərini, Qarabağ iqtisadi rayonumuzu tərk etdikləri zaman da onları qarşılamaq, yedizdirmək, isindirmək və hətta qonaq etmək üçün irəli durmalarına nankorluq etmələrini də qəbul etmək onlara ağır gəlir. Doğrudur, həqiqətən də bu həyasızlığa, bu nankorluğa dözmək ağırdır, çətindir və biz özümüz də erməni həyasızlığının və nankorluğunun acısını çəkmişik, nə demək olduğunu da bilirik. Amma gör nə qədər həyasızlıq və nankorluq edirlər ki, hiyləgərlikdə tayı-bərabəri olmayan, nankorluğu ənənəyə çevirən hayların özləri də bundan bezar olurlar və ikrah hissi ilə qarşılayırlar. Gör nə qədər hiyləgərcəsinə manipulyasiyalar edirlərsə, bu, hiyləgərlərin özlərini belə heyrətləndirir və bezdirir. Lakin unudurlar ki, haylar bu vaxta qədər tarix boyu çox hiyləgərliklərə əl atıblar və hələ də öz ənənələrindən əl çəkən kimi görünmürlər və onlar üçün Qarabağı tərk edən ermənilərin etdikləri ən primitiv manipulyasiyalardır.

## Ermənistanın bundan artığına heç gücü də çatan deyil və manipulyasiyalar da mənasızdır

Bəlkə Köçəryan, Qukasyan, Saakyan tərəfindən idarə olunduqları dövrlər üçün darıxırlar? Axı, həmin o qondarma rejimin idarəetməsi altında olanda heç adam da sayılmırdılar. Yəni, özlərinə qarşı belə münasibətə, qanunsuzluğa bu qədər öyrəşiblər ki, indi həmin şəraiti istəyirlər? Doğrudanmı onlar istəyirlər ki, yenə də başlarını əyib həmin qondarma rejimin idarəetməsinin altına düşsünlər? Bəlkə unudublar ki, onlar qondarma rejimin idarəçiliyi altında kimlərsə tərəfindən daim təhdid, təzyiq altında yaşayıblar? Yoxsa, həmin şəraitdə yaşamaq arzusundadırlar və səs-küy, hay-həşir salmaları da buna görədir? Özlərini yenə də "qapaz" altına salmaq üçün manipulyasiyalara əl atmalarını həqiqətən də heç təsəvvür belə etmək olmur. Bəs bu manipulyasiyalar nəyə görədir axı?

Bəli, heç kim demir ki, bu gün Ermənistanda ciddi problem və çatışmazlıqlar yoxdur. Bunu düşünən belə çətin tapıla. Hamı yaxşı bilir ki, Ermənistan səfalət içərisində olan bir ölkədir. Heç kim üçün sirr deyil ki, erməni cəmiyyəti rəzalətlə, rüsvayçılıqla üzləşib və hələ də vəziyyətdən çıxa bilmir. Bəllidir ki, ermənilər qətiyyən yaxşı vəziyyətdə deyillər və bunda da günahkar həmin ölkənin yürütdüyü işğalçılıq siyasəti, bütövlükdə Ermənistan özüdür. Amma özlərini qondarma da olsa qaçqın sayanlar unudurlar ki, Ermənistanda halları, vəziyyətləri oynadıqları çirkin oyunlarla, hiyləgərliklə, manipulyasiyalarla qətiyyən yaxşılaşan deyil. Onlara təklif olunan vətəndaşlığı, Azərbaycan vətəndaşlığını qəbul etsəydilər və ölkəmizin qanunlarına tabe olsaydılar, o zaman vəziyyətlərini yaxşı təsəvvür edə bilərdilər. Əks halda, bunu heç ağıllarına da gətirməsinlər. Çünki Ermənistanın bundan artığına heç gücü də çatan deyil və manipulyasiyaları da mənasızdır.

*İnam Hacıyev*

# ABŞ-ın yeni "Orta Dəhliz" planı

## Vaşinqton Çinlə Türkiyəni düşmən etməyə çalışır




Ermənistanın Azərbaycana qarşı 30 il davam edən ədalətsiz müharibəyə və torpaqlarımızın işğalına Ordumuzun, xalqımızın və Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin birliyi, bir yumruq halında birləşməsi sayəsində son verildi. Ermənistan işğalçı ordusunun, Qarabağdakı qanunsuz hərbi birləşmələrinin tamamilə məhv olmaması üçün kapitulyasiya aktını - Azərbaycan, Rusiya və Ermənistan tərəfindən imzalanan üçtərəfli Bəyanatı qəbul etmək zorunda qaldı. Həmin sənəddə Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında əlaqələrin maneəsiz olaraq təmin edilməsi barədə bənd bu gün də var. Ermənistan tərəfinin imzaladığı sənədə, atdığı imzaya nə qədər sayqısız yanaşdığı üçtərəfli Bəyanatda da özünü göstərir. Sərhədin Qazax rayonu istiqamətində aparılan delimitasiya və demarkasiya proseslərindən sonra sülhün yaxınlaşdığını düşünənlər son zamanlar Ermənistan rəhbərliyinin apardığı yanlış siyasət nəticəsində dalana dirəndiyi anlamağa başlayıblar. Ermənilərin bundan əvvəlki razılaşmalarda olduğu kimi sülh prosesində də daha çox qarşıdurmalara aparan yolu seçməsi regionda yeni müharibələri təşviq edir. Amma Ermənistanın yenə kimə arxalanaraq destruktivlik yolunu seçir, sualı yenə də açıq qalır.

Zəngəzur dəhlizinin açılması Azərbaycanın perspektiv planlarına daxildir, amma bütün məsələlərdən irəlidə deyil. Naxçıvanla əlaqə üçün alternativlər var. Bu, sadəcə prinsip məsələsidir, Ermənistan rəhbərliyinin yanlış istiqamətə yürüdüyünü və nəticənin ağır olacağını demək fürsətidir. Azərbaycan istədiyi vaxt üçtərəfli bəyanatın 9-cu bəndinin həyata keçirilməsini öz gücü ilə təmin edə bilər, hələlik siyasi-diplomatik yol tükənməyib.



Bu arada, "APRI Armenia" analitik mərkəzinin nümayəndəsi Sergey Melkonyanın Zəngəzur dəhlizi ilə bağlı irəli sürdüyü versiya diqqət çəkib. O, Ermənistanla Azərbaycan arasında bəzi razılaşmaların olduğunu, ilkin mərhələdə hansısa özəl beynəlxalq təşkilatın dəhlizə nəzarət edəcəyini iddia edib. "Əvvəlcə hansısa beynəlxalq özəl şirkət Zəngəzur dəhlizinə nəzarət edəcək. Sonra birgə nəzarət həyata keçiriləcək. Yavaş-yavaş etnik azərbaycanlıların ora (yəni Zəngəzura) köçürülməsinə başlanılacaq. Nəticədə İran Ermənistanla sərhədini itirəcək", - Melkonyanın iddiasında qeyd olunur.

Həmçinin ABŞ-ın Zəngəzur dəhlizinin açılmasında ciddi marağının olduğu deyilir. Bu mənada gizli danışıqlar versiyasının Vaşinqtonun nəzarətində aparıldığına dair iddialar var. Qeyd olunur ki, Azərbaycanla Er-




mənistan arasında münasibətlərin normallaşması və sülh müqaviləsinin imzalanması üçün həlli vacib olan bir sıra məsələlər var. Onlardan biri də Zəngəzur dəhlizinin açılmasıdır. Bu məsələ ilə bağlı həm Bakı ilə İrəvan, həm də qlobal güclər arasında müəyyən bir rəqabət var. Regionun əsas ölkələri Rusiya və Türkiyə dəhlizinin açılmasında maraqlıdırlar. Moskva isə ümumiyyətlə dəhlizə özünün nəzarət etməli olduğunu düşünür. Bu nə Bakının, nə Ankaranın, nə də İrəvanın üreyincədir. Qərb isə son bir ilə qədər məsələyə təmkinli və məsafəli yanaşırdı. Lakin ABŞ Qərbin bu təmkinli mövqeyini pozaraq Zəngəzur dəhlizinin açılmasında maraqlı olduğunu bildirdi. Vaşinqton Kremllə dəhliz üzərində ciddi rəqabətdədir.

### Dəhlizlər və ABŞ

ABŞ isə dəhlizin Ermənistanın suverenliyi çərçivəsində açılmasını istəyir. Vaşinqton Zəngəzur dəhlizinə Ermənistanın nəzarət etməli olduğunu deyir. Suverenlik məsələsində Bakının xüsusi tələbi olmasa da, İrəvanın dəhlizə nəzarət etməsi bizim maraqlarımıza uyğun deyil. Çünki 10 noyabr bəyanatında maneəsiz hərəkət anlaşıyı var. Bunun sıradan çıxmasına icazə verə bilmərik. O ki qaldı Melkonyanın versiyasına, bu, sadəcə onun düşüncələridir. Bakı ilə İrəvan arasında gizli danışıqların olması mümkündür, lakin motiv bilinmir. Yəni bu dəhlizlə bağlı deyil, anklav, eksklavlarla da bağlı ola bilər.

Amerika Birləşmiş Ştatları Cənubi Qafqazda fəal şəkildə iştirakını genişləndirir və Rusiyanın bu regionda təsirini azaltmağa çalışır. Məhz bu məqsədlə Vaşinqton yeni ticarət yolunun yaradılması üzərində işləyir, onun açılması Moskvanın - eyni zamanda Pekinin və Ankaranın maraqlarına təsir edəcək. ABŞ üçün beynəlxalq münasibətlərdə əsas şey pulların, boru kəmərlərinin və dəhlizlərin hara getməsidir. Demokratiyanın, insan haqlarının qorunması, siyasi proseslərin şəffaflığı kimi məsələlər fundamental xarakter daşımır. Bunlar müəyyən ölkələri istənilən istiqamətə aparmaq üçün istifadə edilən çubuqlardır.

Niyə ABŞ kimsə ilə məsləhətləşmədən Qafqazda Azərbaycan və Ermənistan arasında razılaşma əldə etməyə çalışır? Niyə Gürcüstanı hədələyiblər ki, xarici agentlər haqqında qanunu qəbul etməsinlər? Bu qanunun qəbulundan sonra ABŞ və Aİ Gürcüstanla münasibətləri niyə soyudu? ABŞ Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanı NATO-nun Vaşinqtonda keçirilən sammitinə həsr olunmuş tədbirlərə dəvət etmişdi. Məlum oldu ki, Ermənistan Xarici İşlər Nazirliyində Pentaqonun nümayəndəsi işləyəcək. ABŞ Rusiyaya qarşı cənub cəbhəsi açmağa və Türkiyə-Rusiya-İran üçbucağına girməyə çalışır. Hamısı budur?



### ABŞ Özbəkistan və Qazaxıstana nə təklif edib

İki ay əvvəl ABŞ-ın ticarət nümayəndəsi Ketrin Tai Qazaxıstan və Özbəkistana səfər edib. Onun çantasında alternativ "Orta Dəhliz" haqqında qovluq var idi. Tai Qafqaz və Türkiyə vasitəsilə Mərkəzi Asiyanı Avropa ilə birləşdirəcək yeni ticarət dəhlizinin yaradılmasını təklif edib. Bir sözlə, Vaşinqton Özbəkistan və Qazaxıstanın Çin və Rusiyadan yan keçməsini təklif edib. Fakt budur ki, ABŞ qarşısına strateji məqsəd qoyub: Çinin təklif etdiyi "Bir kəmər, bir yol" təşəbbüsünü bir sıra regionlardan kəsmək. Xatırladaq ki, ötən il Çin təşəbbüsünə qarşı çıxmaq üçün ABŞ-ın maliyyələşdirdiyi "Hindistan-Yaxın Şərq-Avropa İqtisadi Dəhlizi" layihəsi elan edilmişdi. Hindistandan dəniz yolu ilə Birləşmiş Ərəb Əmirliklərinə, oradan Səudiyyə Ərəbistanı və İordaniya vasitəsilə qurudan İsrailə, oradan isə dəniz yolu ilə yenidən Yunanıstana gedən marşrut ötən il oktyabrın 7-də Həmas-ın Əl-Əqsa Tufanı əməliyyatına başladıqdan sonra dayandırılıb.

İndi ABŞ ümumən "Bir kəmər, bir yol" təşəbbüsünə qarşı, xüsusən də Türkiyə ilə Çin arasında əməkdaşlığın inkişafı üçün vacib olan Orta Dəhlizə qarşı yönəlmiş Mərkəzi Asiya-Qafqaz-Avropa dəhlizi yaratmağı planlaşdırır.

### Çin, Türkiyə və Gürcüstan arasında "Orta Dəhliz" üzrə əməkdaşlıq

Ötən həftə ABŞ Senatında "Avropanın gələcəyi" mövzusunda dinləmələr keçirilib. Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayen çıxışında bu plandan danışıb. Söhbət Mərkəzi Asiyadan başlayacaq, Azərbaycan- Ermənistan ərazilərindən keçərək Avropaya çatacaq ticarət dəhlizinin yaradılmasından gedir. O'Brayenin çıxışında Gürcüstanın adı çəkilməsə də, Bakı və İrəvanın sərhədlərin demarkasiyası ilə bağlı razılığa gəldiyi bildirilib. Əvvəlki bəyanatlarla müqayisə etsək, aydın görərik ki, ABŞ bu dəhlizdə Gürcüstanı Ermənistanla əvəz etməyə çalışır.

Bəs Gürcüstan niyə bu ticarət dəhlizində deyil? Niyə ABŞ gürcü mediasını və qeyri-hökumət təşkilatlarını maliyyələşdirmək istəyir, amma Gürcüstan hökuməti xarici agentlər haqqında qanun qəbul etməklə buna müqavimət göstərir? Çünki Gürcüstanın indiki hakimiyyəti ABŞ-ın Rusiyaya qarşı cənub cəbhəsi açmaq cəhdlərinə, Vaşinqtonun Qara dənizlə bağlı planlarına qarşı çıxır, həta Qara dənizdə Çinlə əməkdaşlıq edir. Çin hazırkı "Orta Dəhliz" çərçivəsində Gürcüstanda 600 milyon dollar investisiya həcmi olan Anaklia dəniz limanını tikir.

### Çində Fidan siqnalı

İndi isə məsələnin Türkiyə ilə bağlı ölçüsünə toxunaq... Yadınızdadır ki, Türkiyənin xarici işlər naziri Hakan Fidan bu il iyunun əvvəlində Çinə səfər etmiş və orada Türkiyə-Atlantik cinahı həddindən artıq təşvişə salan müəyyən siqnallar vermişdi. İş o yerə çatıb ki, hətta Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının nəzarətində olan media belə Fidanın açıqlamalarını işıqlandırmadı və əksinə, Çini ittiham edən başlıqlarla dolu idi.

Türkiyə diplomatiyasının rəhbərinin səsləndirdiyi mühüm mesajlardan biri də belə oldu: "Bu zaman "Bir kəmər - bir yol" təşəbbüsü və bizim təklif etdiyimiz "Xəzər dənizi üzərindən Yaxın Şərq-Qərb dəhlizi" daha böyük əhəmiyyət kəsb etmişdir. Biz "Orta Dəhliz"in Kəmər və Yol Təşəbbüsü ilə uyğunlaşdırılması və onun İraqda "İnkişaf Yolu" kimi bəzi digər nəqliyyat dəhlizləri ilə inteqrasiyası üçün konkret addımlar atmağa çalışırıq". Başqa sözlə, ABŞ alternativ "Orta Dəhliz"in köməyi ilə eyni zamanda Türkiyə-Çin əməkdaşlığına xələl gətirməyə çalışır.

Sonda xatırlatmaq lazımdır ki, SSRİ-nin dağılmasından sonra ABŞ-ın Orta Asiyaya daha da dərinləşməsi üçün istifadə etdiyi və bəslədiyi oyunçu Gülən hərəkatıdır!

**V.VƏLİYEV**

# İran: İsraili cəzalandırmaq borcu



İran Haniyənin qətlinə görə İsraili cəzalandırmaq üçün mənəvi borc olduğunu bəyan edib. Tehran İslam Əməkdaşlıq Təşkilatının iclasını keçirəcək və bu toplantıda ərəb dövlətlərindən onun Təl-Əvivə qarşı qisas almaq hüququnu dəstəkləməyi tələb edəcək. İran Tehranda yerləşən xarici ölkələrin elçilərini çağıraraq bildirib ki, ölkənin İsraili siyasi avantürizm və qanun pozuntusu adlandırdığı şeyə - HƏMAS lideri İsmayıl Həniyənin bir həftə əvvəl İran paytaxtında öldürülməsinə görə cəzalandırmaq üçün mənəvi borc var. İran həmçinin çərşənbə günü İslam Əməkdaşlıq Təşkilatının (İƏT) fövqəladə iclasını təmin edib və bu toplantıda ərəb dövlətlərinə İsrailə qarşı qisas almaq hüququnu dəstəkləmək üçün təzyiq göstərməyə çalışacaq. Bir çox Körfəz liderləri İsrailin hərəkətlərini pisləyir, lakin İranı təmkinli olmağa çağırır. Görüş İƏT-in Səudiyyə Ərəbistanının Ciddə şəhərindəki mənzil-qərargahında baş tutacaq.

İsrail rəhbərliyi İranın hücumuna hazır olduğunu bildirib. Müdafiə naziri Yoav Gallant bazar ertəsi İranın artan təhdidlərinə cavab olaraq bildirib ki, İsrail ordusu "tez hücuma keçməyə" hazırdır. Baş nazir Benyamin Netanyahu isə bazar günü deyib ki, ölkə artıq İran və onun müttəfiqləri ilə çox cəbhəli müharibəyə girib. İranın mərhum prezidenti İbrahim Rəisinin hərbi əməliyyatlar və ya birbaşa iqtisadi sanksiyalar üçün Körfəzdən dəstək qazanmaq üçün əvvəlki cəhdləri uğursuzluqla nəticələnib. Raisi may ayında helikopter qəzasında həlak olub.

Ola bilsin ki, İran planlaşdırılmış cavab tədbirlərinə başlamaq üçün İKT toplantısının nəticəsini gözləsin. Bununla belə, ABŞ dövlət katibi Antoni Blinken bazar ertəsindən başlayaraq İrandan bir sıra koordinasiyalı zərbələr gözlədiyini bildirib. Prezident Co Baydenin Vaşinqtonda milli təhlükəsizlik komandası ilə yerli vaxtla saat 14:15-də Tehran vaxtı ilə saat 22:00-da görüşməsi planlaşdırılır. O vaxta qədər İranın gecə hücumu planlaşdırıb- hazırlamadığı bəlli olacaq. Bazar günü gec saatlarda Tehran hava limanı mülki təyyarələrin hərbi əməliyyatlarda tutula biləcəyindən narahat olaraq bir sıra gələn və gedən reysləri ləğv edib. 2020-ci ilin yanvarında ABŞ və İran arasında əvvəlki hərbi mübadilədə İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) Tehrandan Kiyevə uçan Ukrayna mülki reysini səhvən vurub, təyyarədə olan 176 nəfərin hamısı həlak olub.

Bazar ertəsi Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu İran rəhbərliyi, o cümlədən prezident Məsud Pezeşkian ilə danışıqlar aparmaq üçün Tehrana gəlib. Şoyqu Rusiyanın İranla müdafiə sahəsində əməkdaşlığının mərkəzi olaraq qalır. Rusiyanın təmkinli olmağa çağırdığına dair heç bir əlamət yoxdur. İran ABŞ-ın müttəfiqi İsrailə nəzarət edə bilməməsindən sonra planlaşdırılan raket zərbələrini regional asayişi bərpa etmək üçün zəruri kimi göstərməyə çalışır. Xarici diplomatlarla görüşdə xarici işlər naziri vəzifəsini icra edən Əli Baqiri deyib: "Bizim hamımızın Fələstin xalqının işğalı, köçürülməsi və soyqırımı qarşısında səssiz qalmamaq mənəvi borc və məsuliyyəti var". O əlavə etdi: Şər və haqsızlıq qarşısında biganəlik və sakitləşmək bir növ əxlaqi səhlənkarlıqdır və şərin yayılmasına səbəb olur.



Həftəlik brifinqdə çıxış edən İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasser Kənani Tehrandan cavab tədbirlərinin qaçılmaz olduğunu deyib. "İran regionda sabitliyə çalışır, lakin bu, yalnız təcavüzkarı cəzalandırmaq və sionist rejimin [İsrailin] siyasi avantürizminə qarşı çəkindirmə vasitəsi yaratmaqla baş verəcək", - deyə Kənani ABŞ-ı İsraila dəstəyi dayandırmağa çağırıb. O, əlavə edib ki, beynəlxalq ictimaiyyət regionda sabitliyi təmin etmək üçün üzərinə düşən öhdəlikləri yerinə yetirə bilməyib və "təcavüzkarın cəzalandırılmasını" dəstəkləməlidir. O, həmçinin qeyd edib: "Terror sionist rejimin mahiyyətidir və bu rejimin sağ qalması dövlət terrorizminin yanaşmasını qoruyub saxlamaqdan asılıdır. Dünya bu cinayəti qəti şəkildə pisləməli, təcavüzkarın cəzalandırılmasını dəstəkləməli və hər cür hərəkətdən çəkinməlidir".

Onun açıqlamaları İordaniya da daxil olmaqla Körfəz ölkələrinə ünvanlanıb. Bu dövlətlər aprelin 1-də İranın Dəməşqdəki konsulluğunda SEPAH komandirlərinin öldürülməsindən sonra İranın İsrailə hücumunun təsirini azaltmaq üçün bu il aprelin 13-dən Qərb dövlətləri ilə əməkdaşlıq edir.

İran daxilində ehtiyatlı olmağı tövsiyə edən və ya hətta ölkənin İsraildən istədiyini diplomatik yolla ala biləcəyini təklif edənlər, Hizbullah, Həmas, İraq yaraqlıları və Husilərin İsrailə hücumunu koordinasiya etmək lazım olduğunu iddia edən müxaliflərə Yəməndə və İranın özündə təslim oldular. Aprel ayında İran qərar qəbul etmək və qisas almağa başlamaq üçün 12 gün çəkdi. O, bu vaxtdan təkcə cavab hazırlamaq üçün deyil, həm də regional müharibəyə can atmadığını aydınlaşdırmaq üçün istifadə edib. Bu da öz növbəsində ABŞ-ı İsraili cavab addımlarında saxlamağa məcbur edib.

Hər iki tərəfdən cavabın miqyası ilə bağlı heç bir siqnal yoxdur. Lakin Haniyənin öldürülməsi ilə İranın cavabı arasında fasilə nə qədər uzun olarsa, münaqişənin nəticələrini azaltmaq üçün diplomatik vasitələrdən istifadə etmək üçün bir o qədər çox vaxt olur. Bazar ertəsi SEPAH-ın yüksək komandiri Hüseyn Salami İsrailin "vaxtında cəzalandırılacağını" təkrar edərək, İsrailin öz məzarını qazdığını əlavə edib. Bu arada döyüşlər bazar ertəsi Qəzza zolağında və İsraillə Livanı ayıran Mavi Xəttdə davam edib.

Livanın Hizbullah qruplaşması səhər tezdən İsrailin şimalında pilotsuz təyyarə ilə hücum təşkil etdiyini və İsrail ordusunun iki İsrail əsgərinin yaralandığını bildirib. Livanın dövlət Milli Xəbər Agentliyi İsrailin pilotsuz uçan aparatının qəbiristanlığa endirdiyi zərbə nəticəsində bir feldşer də daxil olmaqla iki nəfərin həlak olub.

Qəzzada Fələstin rəsmiləri bildiriblər ki, İsrailin hava hücumu nəticəsində HƏMAS-ın idarə etdiyi Qəzza polisinin yardım karvanını mühafizə edən 5 əməkdaşı həlak olub. Mülki hədəflərə zərbələr bazar günü israillilərin Qəzzada iki məktəb və xəstəxana kompleksinə hücumu nəticəsində azı 30 nəfərin ölümündən sonra edilir. İsrail ordusu HƏMAS-ın məktəblərdəki komandanlıq mərkəzlərini vurduğunu və xəstəxanaya endirilən zərbə nəticəsində bir yaraqlının öldürüldüyünü bildirib. Heç bir təfərrüat və sübut təqdim edilməyib.

Son 10 aylıq döyüşlər ərzində HƏMAS-ın İsrail ərazisinə raket və minaatan hücumları təşkil etmək imkanları azalıb. Lakin bazar ertəsi Qəzzadan ən azı 15 mərmi atılıb, bir nəfər yaralanıb, İsrail ordusu bildirib.

Haniyənin öldürülməsi və onun nəticələrinin atəşkəs və Qəzza müharibəsində girovların və əsirlərin azad edilməsinə yönəlmiş beynəlxalq vasitəçili danışıqlara mənfi təsir göstərəcəyi gözlənilir. İsrail müdafiə strukturunda Netanyahunun siyasi səbəblərə görə danışıqlarla bağlı qərar verməkdən yayınması ilə bağlı narahatlıq artır.

**V.VƏLİ**



MƏTANƏT

# Jurnalistlər sertifikasiya imtahanından keçməlidir

***Cəmiyyətin maariflənməsində təhsil sisteminin bir başqa, mətbuatın isə bir başqa rolu var. Deyərdim ki, mətbuatın rolu əvəzolunmazdır. Şagird ümumtəhsil müəssisəsində 11 illik təhsil bazasında öyrəndiyi qədər özünü məktəbi tərk edir. Onun sonrakı həyatında maariflənməsi əsasən mətbuatın üzərinə düşür. O mətbuat ki, maariflənmə işi ilə yanaşı, həm də dilin qorunmasına xidmət etməli, ana dilinin qanunauyğunluğuna xələl gətirməməlidir. Çünki o, həm də sözləri göz yaddaşına çevirmək funksiyasına sahibdir: səhv və düzgün olaraq.***

Hazırda ölkəmizdə təhsil və səhiyyə işçiləri arasında sertifikasiya imtahanları aparılır. Ona görə ki, insanların sağlamlığı və təhsili savadlı mütəxəssislərin əlində olsun. Bu yaxınlarda ibtidai sinif müəllimlərinin sertifikasiya imtahanı zamanı Azərbaycan dilində sözləri düzgün yaza bilməyən, sadə qrammatik qanunlardan xəbərsiz müəllimlərin olduğunu gördük. Və mətbuatda və sosial mediada müzakirələr başladı ki, bəs, bu savadda olan müəllimlər bizim övladımıza necə təhsil verə bilər. Onlar hökmən vəzifəsindən uzaqlaşdırılmalıdır.

Bəli, savadı olmayan müəllimin yetirməsi necə savadlı ola bilər ki? "Tövsiyə" sözünü "tövsiyyə" kimi bilən müəllim təbii ki, bunu şagirdə də elə öyrədəcək. Şagird də müəllimi hər kəsdən savadlı zənn etdiyi üçün bu, onun beyninə həkk olunacaq. Beləliklə, neçə-neçə şagird Azərbaycan dilinə neçə-neçə zərbə vurmuş olacaq. Sait və samiti, cümlənin mübtəda və xəbərini ayırd edə bilməmək kimi...

Deməli, 11 illik məktəb həyatından sonra insan öz dili ilə təmasda ən çox mətbuat vasitəsilə olur. Belə isə həm ənənəvi, həm də sosial media Azərbaycan dilinin qorunmasına cavabdehdir. Lakin gəlin, görək, müasir media Azərbaycan dilini nə dərəcədə qoruyur? Türk və rus dillərində olan sözlərdən istənilən qədər istifadəsi iləmi? Nöqtə, vergülün, digər durğu işarələrinin harada gəldi işlədilməsi, bəzən isə istifadəsinə lüzum görülməməsi iləmi? Dəfələrlə oxuyub anlaya bilmədiyimiz cümlələrləmi? Sərlövhəsi ayrı, mətni tam ayrı məzmunda olan yazılarlamı? Və saymaqla bitməyən səhvlərlə, həm də bağışlanmaz səhvlərlə bol olan mediamızlamı?..

Beləliklə, jurnalistlər arasında da sertifikasiya imtahanlarının keçirilməsi vacibdir. Jurnalistlərin Azərbaycan dilini hansı səviyyədə bilməsi yoxlanmalıdır. Çünki, necə deyərlər, indi yerindən duran jurnalist olub, özünü media nümayəndəsi zənn edir. Ən azından yazılı bir imtahan keçirilməli, jurnalistin düzgün yazı qaydasına riayət edibetməməsi ortaya çıxarılmalıdır. Bundan sonra onun mediada qalıb-qalmaması məsələsinə aid qurumlar tərəfindən qərar verilməlidir. Belə olmasa, mətbuatımızın və ana dilimizin sabahından söhbət gedə bilməz. Çünki hazırda Azərbaycan mediasında əlibaltalı jurnalistlər var ki, dili kökündən baltalaya-baltalaya gedirlər.

Sertifikasiya imtahanları bir neçə il öncə təhsil və səhiyyə sistemində tətbiq olunanda hamı bunun nəyə lazım olduğundan danışırdı. Yəni, qənaət belə idi ki, əlində ali təhsil haqqında diplom olan insanı yenidən imtahandan keçirmək nə dərəcə düzgündür. Lakin görünür ki, yanılırmışıq. Hər iki sistemdə sertifikasiya imtahanlarının keçirilməsi çox doğru qərar imiş. Birincisi, ona görə ki, imtahandan müvəffəqiyyətlə keçənlərin əmək haqları artır, ikincisi isə müvafiq balı toplaya bilməyənlər tutduğu vəzifədən kənarlaşdırılır ki, bu da vətəndaşın xeyrinədir.

Mətbuat sahəsində də belə olmalıdır. Yazı yazmağı bacarmayan, dilimizin sadə qrammatik qanunlarını bilməyən jurnalistlər gedib başqa bir sahədə özünə iş tapmalıdır. Hər kəsin jurnalist olması lazım deyil ki. Onsuz da jurnalistika başqa sahələrdən fərqli olaraq "qucağını" hər kəsə açır. Yəni, jurnalist müəllim, həkim, mühəndis və sair ola bilmədiyi təqdirdə, onlar jurnalist ola bilirlər. Lakin bu, o demək deyil ki, özünə iş tapa bilməyən və yaxud öz sahəsində işləməyə bilik və bacarığı olmayan şəxs jurnalistikaya üz tutub onu zaman-zaman hörmətdən salsın.

Nə qədər gec deyil, mediamız "jurnalistlərdən" təmizlənməlidir. Bu da yalnız sertifikasiya imtahanı ilə mümkündür.

***Cənubi Qafqaz Ölkələrinin Strateji Araşdırmalar Mərkəzinin direktoru Yevgeni Mixaylov Qərbin Cənubi Qafqazda təsirinin artmasının nəticələri haqqında "Moskva-Baku" portalına müsahibəsində maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.***

## Yevgeni Mixaylov:

# "Qərb Cənubi Qafqazı "partlatmağa" çalışır"



*- Yevgeni Aleksandroviç, bu gün (dünən-red.) məlum olub ki, Ermənistan bu ay Rusiya ərazisində keçiriləcək KTMT təlimlərində iştirakdan imtina edib. Respublikanın Müdafiə Nazirliyi Ermənistan ordusunun islahatları çərçivəsində ABŞ və digər beynəlxalq tərəfdaşlarla əməkdaşlıq etdiyini açıqladı. İrəvan bütün istiqamətlərdə getdikcə daha çox Qərbə yaxınlaşmaqla hansı məqsədi güdür?*

-Məqsəd Qərbin sponsorluğu ilə Rusiyadan uzaqlaşmaq, daha







doğrusu, Rusiya Federasiyası ilə müsbət münasibətdən çıxmaq, Qərbin Cənubi Qafqazda maraqlarının dirijoru olmaq, yəni bölgəni öz altında əzməyə çalışan Qərbə biləərkdən imkan verməkdir. Qərb kuratorları Ermənistanın baş naziri Nikol Paşinyanı "məxməri inqilab" nəticəsində hakimiyyətə gətirərkən onun qarşısına məhz bu vəzifə qoyublar. Qərb dünyanın müxtəlif yerlərində öz rəqiblərinə qarşı əməliyyatları həmişə əvvəlcədən planlaşdırır. Buna uyğun olaraq, indiki halda Paşinyan əvvəllər Qərbin hazırladığı şeyi həyata keçirir. Ermənistan dövlətinin hazırkı rəhbərinin əsas şəxsi məqsədi hakimiyyətdə qalmaq, Qərb sponsorlarından maliyyə almaq və onun və ailəsinin təhlükəsizliyinə şəxsi zəmanət verməkdir. Şübhə yoxdur ki, Qərb Paşinyanı hakimiyyətdə saxlamaq üçün külli miqdarda pul xərcləyir. Əks halda, Ermənistanın indiki lideri çoxdan getməli olardı, bunun üçün Qarabağın itirilməsi də daxil olmaqla, kifayət qədər səbəblər var idi; Deməli, Paşinyanın öz hakimiyyətini saxlamaq naminə Qərbin göstərişlərini yerinə yetirməkdən başqa məqsədi yoxdur. Qərb ona hansı siyasi addımları atmalı olduğunu diktə edir.

Qərbin Cənubi Qafqaz regionunda təsirini gücləndirmək üçün cənab Paşinyan Ermənistanın həm daxili, həm də xarici siyasətini yenidən formalaşdırır. Ermənistanın indiki bütün islahatları Qərb tərəfindən maliyyələşdirilir. Silah tədarükü davam edir, respublikanın silahlı qüvvələri NATO standartlarına keçirilir. Qərb Ermənistanın siyasətinin müxtəlif istiqamətlərini maliyyələşdirməklə onu özünə bağlayır. Necə deyərlər: pulu kim verirsə, mahnını da o sifariş verir. Anti-Rusiya əhval-ruhiyyəsini inkişaf etdirmək üçün əhalinin məlumatlarının işlənməsinə çoxlu pul yatırılır.

Ermənistanın Qərbə doğru çəkilmə siyasətində bu və ya digər dərəcədə dönüş nöqtəsi olan əsas hadisə aprelin 5-də Brüsseldə Ermənistanın baş naziri, ABŞ dövlət katibi və Avropa Komissiyasının rəhbərinin görüşü oldu. Burada üçtərəfli əməkdaşlığın əsas vektorları müəyyən edilib və İrəvana yardımın maliyyə komponenti qeyd edilib. Nəzərinizə çatdırım ki, bu formatda görüşün keçirilməsi faktı həm Moskvanın, həm də Bakının son dərəcə mənfi reaksiyasına səbəb olub. Daha sonra Azərbaycan prezidenti İlham Əliyev bildirdi ki, Bakı Ermənistan-ABŞ-Aİ hərbi əməkdaşlığının müzakirə edilməsindən narahat olmaya bilməz, baxmayaraq ki, bunu hər cür rəsmi şəkildə inkar edirlər. Və sonra dövlət başçısı bəyan etdi ki, bu, Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin xeyrinə oynaya bilməz.

İndi Qərbin "Ermənistan" adlı əməliyyatı son mərhələsinə qədəm qoyur. Gördüyümüz kimi, son həftələr Vaşinqton yenidən Rusiyanı Cənubi Qafqaz ölkələrinə qarşı sıxışdırmağa cəhdlər edir və deyir ki, guya Moskva ilə əməkdaşlıq bu dövlətlərə yaxşı heç nə gətirməyəcək. Rusiyadan uzaqlaşmaq çağırışları var. Ermənistanın İrəvan hava limanında rus sərhədçilərinin xidmətindən imtina etməsi müsbət qarşılanır və bildirilir ki, İrəvan bunu çoxdan etməli idi. Ümumiyyətlə, o qədər ardıcıl təxribat və təşviq edilir ki, Zaqafqaziyada hər bir ölkə Rusiya ilə qarşılıqlı əlaqədən imtina etmək qərarına gəlsin.

Qərbin səyləri sayəsində Ermənistan artıq anti-Rusiya forpostuna çevrilir. Müstəqil dövlət deyil, siyasətin müstəqil aktyoru deyil. Qərb müstəqil siyasət yürütmək istəyən bütün region ölkələrinə qarşı çıxır. Ermənistanın özü üçün Qərbin nəzarətinə keçid dövlətçiliyin itirilməsi təhlükəsi yaradır.

Zaqafqaziya dünyanın mühüm strateji geosiyasi nöqtələrindən biridir. Yaxınlıqda Rusiya, İran, Türkiyə var. Orta Asiya da yaxınlıqdadır. Ona görə də Qərb ona sahib çıxmaq istəyir, bütün Cənubi Qafqazı öz nəzarətinə götürməyə çalışır.

Əgər Ermənistanla bu, demək olar ki, baş tutmuşdursa,- baxmayaraq ki, İrəvan hələ də iki kresloda oturub Rusiya ilə aranı o qədər də kəskinləşdirməməyə çalışır,- o zaman Qərb Zaqafqaziya ölkələrinin qalanı ilə, necə deyərlər, əlləşməlidir. Amma bu, heç də hamısı ilə alınmır, məsələn, Azərbaycanla.

Gürcüstanın hakimiyyət orqanları xarici agentlər haqqında qanun qəbul edəndən sonra Qərbin bu ölkəyə necə təzyiq göstərməyə çalışdığını görürük. Qərb Gürcüstan dövlətinə göndərdiyi yardımın bir hissəsini artıq dondurub. Hər şey ona doğru gedir ki, Qərb oktyabrın 26-da Gürcüstanda keçiriləcək parlament seçkilərində qərbyönlü müxalifətin qalib gəlməsini təmin etməyə çalışacaq. Əgər bu baş verərsə, bu o demək olacaq ki, 3 Cənubi Qafqaz dövlətindən 2-si Qərbin nəzarəti altında olacaq.

Qərb, artıq qeyd etdiyim kimi, həqiqətən də Azərbaycana təsir etmək istəyir, lakin buna nail olmur. Azərbaycan öz suveren siyasətini həyata keçirir, siyasi və iqtisadi cəhətdən sabit dövlətdir. Azərbaycanın ciddi müttəfiqləri var- Rusiya və Türkiyə, onların da regionda öz aydın milli maraqları var. Azərbaycanın beynəlxalq aləmdə statusu ancaq yüksəlir. O, dünyada baş verən bir çox siyasi proseslərin təşəbbüskarıdır. Və bu gün bu, sadəcə götürüb "udmaq" üçün bir ölkə deyil. Bu, özünü pis apara biləcəyin oyunçu növü deyil. Bu həm də ondan irəli gəlir ki, rəsmi Bakı ötən ilin sonundan ABŞ, Aİ və Fransaya qarşı tənqidləri artırıb. Və o, Qərbin Cənubi Qafqazdakı siyasətinin ədalətsizliyini, eləcə də Azərbaycana təzyiq cəhdlərini açıq və cəsarətlə bəyan edir.

*- Ermənistanla Qərbin yaxınlaşması gələcəkdə Cənubi Qafqaz üçün nə vəd edə bilər?*

- Təbii ki, bu, yumşaq desək, Rusiyanın, Azərbaycanın və regiondakı digər suveren dövlətlərin maraqlarına uyğun gəlmir. Ən böyük problem odur ki, Ermənistanla Qərb arasında əməkdaşlıq regionda təhlükəsizliyin pozulması demək olacaq. Ssenari mənfi istiqamətdə inkişaf edərsə və Qərb Cənubi Qafqazın 3 ölkəsindən 2-ni (təkcə Ermənistanı deyil, Gürcüstanı da) nəzarət altına alarsa, regionda vəziyyət tamamilə gözlənilməz və çox təhlükəli olacaq. Bu hər şeyə təsir edəcək. Qərb regionda aqressiv anti-Rusiya vektoru təqib edəcək. O, Rusiya ilə Azərbaycanı bir-birinə qarşı qoymaqda davam edəcək.

Bundan əlavə, mən inanıram ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi olmayacaq. Çünki Qərb bu məsələdə manipulyasiya etməyə, bu məsələdə bir növ Ermənistanın maraqlarını qorumağa çalışır. Əgər sülh müqaviləsi olmasa, Qərbin Ermənistana silah tədarükü daha da artacaq. Və yeni hərbi əməliyyatların baş verməsi olduqca mümkündür. Bundan əlavə, biz bilirik ki, Qərb Gürcüstan vasitəsilə Rusiyaya qarşı ikinci cəbhə açmaq istəyirdi. Gürcüstan bununla razılaşmadı. İndi Ermənistan ehtiyat variantına çevrilib. Axı Ermənistan hakimiyyəti dəfələrlə vurğulayıb ki, İrəvan Ukrayna məsələsində Rusiyanın müttəfiqi deyil. Yaxın Şərqdə, İsraillə Fələstin arasında, İsraillə İran arasında uzun müddət - keçən ilin payızından bəri hadisələrin necə cərəyan etdiyini və son günlərdə vəziyyətin yenidən son dərəcə təhlükəli tendensiyalar aldığını nəzərə alsaq, istənilən vaxt o, Cənubi Qafqaz və Xəzər regionunun qovşağında bir yerdə alovlana bilər.

Bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlər Cənubi Qafqazda sabitliyin əsas amilidir, Qərbin regionda möhkəmlənmək və öz siyasətini qurmaq cəhdlərinə qarşı mübarizə vasitəsidir. Fikrimcə, bu qarşıdurmada regionun suveren ölkələri birləşməlidir.

***Tərcümə - Elçin Bayramlı***

# Qeysəriyyə ilə doğuş: kim uduzur, kim udur?

***Qeysəriyyə əməliyyatı körpənin təbiətin diktə etdiyi kimi vaginal yolla deyil, uşaqlıq yolu ilə qarın boşluğu arasındakı kəsiklə dünyaya gətirilməsi prosesidir. Qeysəriyyə ilə doğuşun həyata keçirilməsi ana üçün normal doğuşun mümkün olmadığı, həmçinin ana və körpə üçün həyati risk yarana biləcəyi hallarda baş tuturdu. Ona görə "tuturdu" deyirəm ki, bu vəziyyət indi dəyişib, keysəriyyə yolunu seçən ana və həkimlər daha zorakı yox, könüllü bu yolu seçirlər. Məqsədləri fərqlidir - "zerkalni" doğuş tarixi, uşaqlıq yolunun genişlənməməsi, həkimin öz xəstəsini əldən qaçırmaması, qadınların doğuş fobiyası və s.***





Tibb elmi deyir ki, qeysəriyyə fizioloji quruluşun tamamilə əksinə yönəlmiş bir əməliyyatdır. Məlumat üçün bildirək ki, uşaq yaşının 3 dövrü olur ki, bunlar bətndaxili dövr, intranatal dövr və doğuşdan sonrakı dövr adlanır. Körpə ana bətnindəki dövrü, eləcə də doğuşdan sonrakı dövrü özü yaşayır, təbii prosesə uyğun böyüyür.

Körpə bu dövləri yaşadığı kimi intranatal dövrü də təbii olaraq yaşamalıdır. İntranatal dövr doğuş prosesinin gedişi dövrü deməkdir və hər bir canlı bu dövrü yaşamalıdır. Bu proses xüsusilə insan doğulan zaman onun orqanizmi üçün çox vacibdir. Körpə ana bətnində olanda onun nəfəs yolları minimum 30-40 ml. maye ilə dolaraq tutulur. İntranatal dövr başlandığı zaman dölün orqanizmi hazırlıq prosesi keçir, uşaqlıqdan kənar sərbəst nəfəs almağı və yaşamağı öyrənir, uşaqlıq yolu ilə irəlilədikcə ananın çanağı onun ciyərlərində qalan suyu sıxaraq təmizləyir, ciyərlərin tədricən nəfəs almasına hazırlıq görür. Ana orqanizmi özü təbii yolla körpəsini həyata hazırlayır. İntranatal dövrü keçid dövrüdür və bu keçiddən keçmədən dünyaya gəlmək normal deyil. Körpəni qeysəriyyə əməliyyatı ilə kəsib birbaşa çıxaranda bu proses baş vermir və dolayısı ilə körpənin ağciyərlərində su qalır və bu da gələcəkdə tənəffüs yolu xəstəliklərinə təkan verir.

Hələ 2019-cu ildə Amerikada aparılan araşdırmaya görə, qeysəriyyə əməliyyatı ilə doğulan körpələrdə autizm riski normal doğuşlarla müqayisədə 33 faiz çoxdur. Həmçinin araşdırmada ortaya çıxan bir maraqlı məsələ də o oldu ki, əməliyyat yolu ilə doğulan uşaqlarda son illərin ən çox rastlanan problemlərindən biri olan diqqət əskikliyi riski 17 faiz yüksəkdir. Nəticələri ABŞ-ın akademik "Jama National Medical Journal"da nəşr olunan araşdırmada ümumilikdə 20 milyon doğuşla bağlı vəziyyət araşdırılıb.

Qeysəriyyə ilə doğuşa üstünlük verilməsi yalnız tibbi göstərişlərə görə olmalıdır. Körpənin normal doğuşa uyğun vəziyyətdə olmaması səbəbindən qeysəriyyə əməliyyatı olunması versiyası da son illər dünya tibbindən çıxarılır. Çünki ana qarnına kənardan müdaxilə etməklə, xüsusi masaj vasitəsi ilə təbii doğuş üçün tərs pozisiyada dayanmış körpə masaj edilməklə düzgün pozisiyaya gətirilir və təbii doğuş baş tutur. Qeysəriyyə ilə doğuş planlaşdırılan əməliyyatdır. Hər bir əməliyyatda olduğu kimi, bu doğuş üsulunun da riskləri var. Ona görə də qesəriyyə ilə doğuş könüllülük əsasında yox, yalnız tibbi göstərişlər əsasında təyin edilməlidir. Təəssüf ki, bizim ölkəmizdə bu seçim qadının öz ixtiyarına verilir, körpəsini dünyaya gətirmək üçün o istədiyi üsulu seçməkdə sərbəstdir. Lakin bir çox qadın qeysəriyyə əməliyyatının ana və körpə üçün mənfi təsirlərini bilmir. Bu təsirlərdən ən birincisi yazının girişində də qeyd etdiyim kimi, körpələrin intranatal dövrünü yaşamadıqlarıdır. Bütün gələcək xəstəliklərə də məhz bu dövrün əskikliyi yol açır.







Qeysəriyyə əməliyyatından sonra ananın sağalma müddəti daha uzun olur. Qarın nahiyəsində narahatlıq və ağrı yaralar sağalanadək, bəzən illər uzunu qalır. Bu səbəbdən ananın xəstəxanada qalma müddəti adətən daha uzun olur. Qeysəriyyə əməliyyatı zamanı və ya ondan sonra qanaxma riski normal doğuşdan daha yüksək olur. Qeysər kəsiyi ilə ana olmuş qadının normal doğuş keçirən anaya nisbətən infeksiyaya yoluxma riski daha yüksəkdir. Qeysəriyyə yolu ilə ən çox 3 dəfə ana olmaq olur və doğuşlar arasında müddət olmalıdır. Qeysəriyyə əməliyyatından sonra körpənin əmizdirmə və qidalanma problemləri çox olur. Ana əməliyyatla doğuş etdiyi üçün orqanizm süd istehsal etməyə gecikir və körpə süni qida ilə qidalandırılır. Doğuşun ilk saatında ana südü - molozivo əmə bilmədikləri üçün onların immun sisteminin inkişafı normal doğuşla dünyaya gələn körpələrə nisbətən zəif olur.

Qeysəriyyə ilə doğuşda ölüm riski vaginal doğuşa nisbətən daha yüksəkdir. Hər bir əməliyyatda olduğu kimi, keysəriyyə ilə doğuşda da risklər ola bilər və bəzi fəsadlar yarana bilər, qəfil vəziyyət ölüm riskini artıra bilər. Bunlardan ən təhlükəli olanlar anesteziya nəticəsində yaranan ağırlaşmalardır, digəri isə keysəriyyə əməliyyatı zamanı baş verən ciddi və həddindən artıq qanaxmadır. Qeysəriyyə əməliyyatından sonra yüksək təzyiq də ən çox rastlanan vəziyyətlərdəndir. Orqanizm normal doğuşla ana olmadığı üçün stress yaşayır və bu stress hormonal dəyişikliklər, habelə süd istehsalının ləngiməsinə səbəb olur. Bu səbəbdəndir ki, qeysəriyyə ilə dünyaya uşaq gətirən anaların uşaqları süni qidalanmaya məruz qalırlar.

Qeyd etdiyimiz kimi, qeysəriyyə ilə doğuş zamanı uşaqlığın divarı kəsilir, körpə çıxarıldıqdan sonra sonra bu kəsik tikilir. Bir çox qadında bu kəsikdən sonra toxumanın sağalması tam olmur, kəsik yerində uşaqlığın daxili divarında cib əmələ gəlir. Bu cib "qeysəriyyə çapıq defekti" adlanır. Bu vəziyyət doğuşdan dərhal sonra da baş verir, uzun müddət sonra da. Menstruasiya zamanı uşaqlıqdan xaricə çıxmalı olan qan bu cibdə toplanır və bu da səbəbsiz qanaxma, qasıq ağrısı, təkrarlanan vaginal infeksiyalar, vaginal qoxu kimi bir çox problemə səbəb olur. Bu vəziyyət uşaqlığın daxili toxumasını zədələyir, embrionun yerləşməsinə və inkişafına mane olur və beləcə qadında sonsuzluğa səbəb olur.

Normal doğuşla dünyaya gələn uşaqların immun sistemi doğuş prosesi zamanı, vaginal yolla irəlilədikcə vaginal flora ilə təmasda olur, mikroblarla tanış olur. Bu yolla körpənin immun sistemi bərkiyir, möhkəmlənir və onu doğuşdan sonrakı dövrdə gözləyən mikroblara qarşı dözümlü olur. Lakin qeysəriyyə ilə doğuş zamanı körpə steril bir mühitə doğulur, vaginal flora ilə təması olmur və mikrobları tanımır. Buna görə də də orqanizm mikroblarla tanış olacağı zaman zəif olur və bədən allergik xəstəliklər üçün münbit şərait olur.

Qeysəriyyə kəsiyindən qazanan hələ ki, klinikalar və həkimlərdir. Çünki normal doğuşa nisbətən qeysəriyyə əməliyyatı bahadır və həkim üçün rahat gəlir yeridir. Əgər bir həkim normal doğuşla uşaq dünyaya gətirdirsə bunun üçün minimum 3, maxsimum 10-12 saat xəstə ilə məşğul olmalı, doğuş prosesini izləməlidir. Lakin bu müddətə 5-7 qeysəriyyə əməliyyatı edərək həm daha çox gəlir əldə edir, həm də vaxtdan qazanır. Bu prosesdə həm udan var, həm də uduzan. Udan tərəf bəllidir, bəs uduzanlar?

***Lalə Mehralıəə***

# Kosmik sənayenin inkişafı Azərbaycanın gücünün təntənəsidir






**44 günlük Vətən savaşında erməni vəhşi toplum üzərində qazanılan parlaq qələbə Azərbaycanın dünya düzənində yeni güc mərkəzlərindən birinə çevrilməsinə imkanlar yaratdı. Artıq ölkəmiz dünyanın ən aparıcı dövlətlərindən biri kimi özünün yeni inkişaf dövrünü yaşayır. Uğurlu, müstəqil siyasət həyata keçirməklə Azərbaycan beynəlxalq aləmdə ictimai - siyasi sabitliyin bərqərar olduğu, əmin-amanlığın, sülhün və təhlükəsizliyin təmin olunduğu dövlət kimi tanınır və qəbul edilir. Azərbaycan dünyada yalnız nefti və qazı ilə deyil, həm də turizmi, pambığı, baraması, yüksək bilik və bacarığa malik insan kapitalı ilə də tanınır. Son illər informasiya-kommunikasiya texnologiyaları sahəsində əldə olunan uğurlar qeyri-neft sektorunda yeni uğurların siyahısının genişlənməsinə imkanlar yaradıb.**

Fakt budur ki, bu gün ölkəmizdə İKT sektoru sürətlə inkişaf edir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani təsdiqidir. Təbii ki, informasiya-kommunikasiya texnologiyaları hər bir ölkənin sosial-iqtisadi həyatında mühüm rola malikdir. Bunu nəzərə alan Ulu Öndərimiz Heydər Əliyev 2003-cü il 17 fevral tarixində "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"nın təsdiq edilməsi haqqında Sərəncam imzaladı. "İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya" rabitə və informasiya texnologiyaları sahəsində kompleks tədbirlərin həyata keçirilməsində, bu sahənin qanunvericilik bazasının gücləndirilməsində əhəmiyyətli rol oynadı. Bu baxımdan demək olar ki, bu gün informasiya-kommunikasiya texnologiyaları sahəsində əldə olunan nailiyyətlər Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. 2003-cü il prezident seçkilərində xalqın mütləq dəstəyini qazanaraq Azərbaycan Prezidenti seçilən Ulu Öndər Heydər Əliyevin ən layiqli siyasi varisi Cənab İlham Əliyev ölkəmizin bütün sahələrinə olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına da xüsusi önəm verdi və bu sahənin inkişafı üçün dövlət proqramları, fərman və sərəncamlar imzaladı. Prezident İlham Əliyevin 2005-ci il 22 oktyabrında imzaladığı "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" fərmanı rabitə və informasiya texnologiyalarının geniş tətbiqinə yeni imkanlar açdı. Dövlət Proqramı ölkəmizin hər bir yerində rabitə və informasiya texnologiyalarının geniş yayılmasını təmin etmiş oldu.

## Ölkəmizdə İKT sektoru sürətlə inkişaf edir

Görülən işlərin məntiqi olaraq artıq ölkəmizdə elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" və 2010-cu ildə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında imzalanan sərəncamlar ölkəmizdə yüksək texnologiyaların tətbiqinə və kosmik sənayenin yaradılmasına göstərilən böyük diqqətin nümunəsidir.

Qərbin, ABŞ-ın və Azərbaycanın tanınmış mütəxəssislərinin birgə əməkdaşlığı ilə 2013-cü il də orbitə çıxarılan "Azərspase-1" telekommunikasiya peyki ölkəmizin dünyada mövqelərinin daha da möhkəmlənməsinə imkanlar yaratdı. Həm də diqqətçəkən və qürur doğuracaq məqam ondan ibarət idi ki, peyk üç rəngli Azərbaycan bayrağı ilə kosmosa gönərilmişdir. Bu, Azərbaycanın elmi-texniki və iqtisadi qüdrətinin təntənəsi idi. Azərbaycanın ilk telekommunikasiya peyki informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayenin inkişaf etdirilməsi ilə yanaşı, böyük həcmdə xarici valyutanın təmin olunmasında da mühüm rola malikdir. Azərbaycan Prezidenti İlham Əliyev orbitə buraxılan Azərbaycan peyklərinin iqtisadi səmərəsi ilə bağlı demişdir: "Gələcəkdə bu sahənin hər bir ölkə üçün nə qədər vacib olduğunu, əminəm ki, hər kəs görəcəkdir. Hər bir ölkənin uğurlu, dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaqdır. Mən buna əminəm. Mən çox şadam ki, biz bu istiqamətdə bütün işləri planlı, məqsədyönlü şəkildə aparırıq. Bütün addımları atırıq ki, ölkəmiz daha da güclənsin, Azərbaycan daha da müasir dövlətə çevrilsin".

## Azərbaycanın orbitdə özünün telekommunikasiya peyki olan azsaylı ölkələrdəndir

2014-cü ildən "Azərspace-1" peyki vasitəsilə Azərbaycanın bütün televiziya və radio kanalları keyfiyyətli yayıma başlayıb. Hazırda "Azərspace-1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə 120-dən artıq televiziya kanalı yayımlanır. "Azərspace -1" peykin orbitə çıxarılmasının ardınca 2018-ci il sentyabrın 26-da Fransanın Qvianasında yerləşən Kuru kosmodromundan Azərbaycanın "Azerspace-2" peyki orbitə buraxıldı. Prezident İlham Əliyev "Azərspace 2" peykinin orbitə buraxılması münasibətilə xalqa təbrikində demişdir: "Azərbaycan qısa müddət ərzində dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. "Azerspace 2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək". Azərbaycanın orbitdə özünün telekommunikasiya peyki olan azsaylı ölkələrdən olması onu deməyə əsas verir ki, ölkəmiz yaxın gələcəkdə regional kosmik sənaye mərkəzinə çevriləcək. Yerli və xarici mütəxəssislər o fikirdədirlər ki, 2023-cü ildə kosmik sənayenin inkişafı üçün çox gözəl imkanları olan Azərbaycanda İKT sektorundan əldə olunan gəlirlər neft gəlirlərini üstələyəcək. Bu istiqamətdə Azərbaycanın dünya ölkələri ilə əməkdaşlığı artır və daha da dərinləşir. Bütün bunlar Azərbaycanda uğurla həyata keçirilən dövlət siyasətinin göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Biz gələcəyə bu cür baxırıq: müasirlik, dinamik inkişaf, texnologiyaların tətbiqi. Bunlar olmasa biz istədiyimiz qədər inkişaf edə bilmərik. Biz isə istəyirik ki, inkişaf etmiş ölkələrin sırasına daxil olaq və imkanlar da var

Əsas məsələ ondan ibarətdir ki, bütün bu strategiyamızı düzgün planlaşdıraq və addımlarımızı düzgün ataq ki, Azərbaycan bu sahədə də birincilər sırasında olsun". "Azerspace-2" peykin orbitə çıxarılması ölkəmizin iqtisadi gücünə güc qatacaq. Çünki "Azerspace-2" peyki Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edəcək və Azərbaycana 400 milyon dollar gəlir gətirəcək. Nəzərə almaq lazımdır ki, 2013-cü il fevralın 8-də orbitə çıxarılan "Azərspace-1" telekommunikasiya peyki 15 illik istisamar müddəti ərzində ölkəmizin iqtisadiyyatına 220 milyon ABŞ dolları gəlir gətirəcək. 2014-cü il iyunun 30-da orbitə buraxılan "Azersky" müşahidə peyki isə, ümumilikdə 200 milyon avro gəlir gətirəcəyi prqnozlaşdırılır. Bir sözlə, kosmik sənayenin inkişafı Azərbaycanın iqtisadi, siyasi gücünü artırmaqla yanaşı, dünyada nüfuzunun daha da artmasına təkan olacaq. Bu isə, aparılan siyasətin düzgün və əsaslı olduğunu, Azərbaycan xalqına və dövlətinə hələ çox uğurlar gətirəcəyindən xəbər verir.

***İLHAM ƏLİYEV***

# Ermənistana xəbərdarlıq:
# Manipulyasiyalarla məşğul olmayın!

***Prezident İlham Əliyevin tələbi: Zəngəzur dəhlizinin ən düzgün variantı avtmobil və dəmiryolunun Mehri ərazisindən keçməsidir. Bu marşrut açılmasa Azərbaycanla Ermənistan ərazisində başqa sərhəd olmayacaq.***

Son günlərdə Ermənistan silahlılarının Azərbaycanın mövqelərini, xüsusilə Naxçıvan Muxtar Respublikasının sərhəd bölgələrində yerləşən hərbi hissələrini atəşə tutması, təxribatlar törətməsi istər-istməz belə bir sual yaradır: Niyə bəs Naxçıvan!

Tarixdən bəllidir ki, daşnaklar Naxçıvanla bağlı ərazi iddialarını dəfələrlə gündəmə gətiriblər. Guya Naxçıvanın daşnaklara məxsus olduğunu iddia edən haylar Azərbaycanın bu qədim yurd yerinə sahiblənmək üçün ən çirkin yalanlara belə əl atıblar. Ən çirkin niyyət Zəngəzuru Ermənistana birləşdirməklə Naxçıvanı Azərbaycandan ayırmaq olmuşdur. "Bəli, o vaxt ermənilər Naxçıvana iddia edirdilər. Naxçıvanı öz torpaqları kimi hesab edirdilər və Naxçıvanı Ermənistanın tərkibinə daxil etmək istəyirdilər" söyləyən Ulu Öndər Heydər Əliyev tarixi hadisələri ötən əsrin sonlarında baş verənləri təhlil etməklə dəyərləndirib. Bildirib ki, tarixi nöqteyi- nəzərdən çox ağır, gərgin bir dövrdə Zəngəzuru, Naxçıvanı Azərbaycanın ayrılmaz hissəsi kimi qoruyub saxlamaq böyük cəsarət tələb edirdi.

Daşnakların Azərbaycan torpaqlarına, xüsusilə Naxçıvanla bağlı ərazi iddialarını aktuallaşdırmaları daşnak ideologiyası ilə idarə olunan Ermənistanın dövlət siyasətində təkcə Qarabağa deyil, Naxçıvana da əl uzatmaq niyyətlərindən çəkinmədikləri açıq-aşkar bəlli olur.

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan - Rusiya-Ermənistan arasında imzalanan 10 noyabr 2020-ci il Bəyanatında nəqliyyat-kommunikasiya ilə bağlı bəndin şərtlərini yerinə yetirməsindən yayınan rəsmi İrəvan hələ də ABŞ-ın və Qərbin yalan vədlərinə aldanaraq bölgədə sabitlik üçün başlıca amil olan Zəngəzur dəhlizinin açılmasına qərbsayaq yanaşır. Adı çəkilən Bəyanatda qeyd olunur ki, Zəngəzur dəhlizinin 42-43 kilometr ərazisində təhlükəsizliyi və nəzarət öhdəliyini Rusiya sərhədçiləri yerinə yetirməlidir. Zəngəzurun dəmir və avto yollarının açılmasını Çinin beynəlxalq əhəmiyyətli "Bir kəmər, bir yol" layihəsinin davamı kimi, dəyərləndirən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, Ermənistan istər könüllü, istərsə də məcburi əsaslarla Bakının sülh gündəliyinə daxil olan təkliflərlə razılaşacaq, xüsusilə Zəngəzur dəhlizi ilə bağlı gec-tez ortaq məxrəcə gələcək. Çünki bu gündəlik yalnız qalibiyyətdən irəli gələn yanaşmalar əsasında formalaşdırılmış reallıq deyil. Onun arxasında tarixi, hüquqi və mənəvi əsaslarla dəstəklənən ədalət axtarışı var. Deməli İrəvan qalib, həmçinin haqlı tərəf olan rəsmi Bakının maraqları və hədəfləri ilə hesablaşmağa məcburdur. "Düzdür, orada "Zəngəzur dəhlizi"" sözü yoxdur. Çünki "Zəngəzur dəhlizi"" terminini mən ondan sonra, necə deyərlər, geosiyasi leksikona daxil etdim. Ancaq orada açıq-aydın göstərilir ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır və Ermənistan bunu təmin etməlidir"" söyləyən Prezident İlham Əliyev tarixi həqiqətlərə işıq salır.

Delimitasiya və demarkasiya komissiyasının fəaliyyətinin davam etdiyi, kommunikasiya xətlərinin bərpası ilə bağlı müzakirələrin aparıldığı indiki məqamda Zəngəzur dəhlizi ilə bağlı Ermənistanın qeyri-konstruktiv mövqeyi, sərgilənən yalan və böhtanlar, ziddiyyətlər ilk növbədə sülh müqaviləsinin imzalanmasına mane olur. Ermənistan konstitusiyasında, digər rəsmi sənədlərdə Azərbaycanla bağlı ərazi iddialarından, Qarabağı "özünütküləşdirmək" sərsəmləmələrindən əl çəkməməsi, üstəlik təxribat xarakterli böhtanlar səsləndirməsi bölgədə sabitliyə təhddirdir. Belə əsassız iddiaların cavabı, sülh danışıqlarının perspektivi ilə bağlı önəmli və etibarlı mənbə hər zaman






sözü imzası qədər dəyərli olan dövlət başçımızın bəyanatları, qətiyyətidir".

Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycanın Qərb əyalətlərini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizi bərpa olunmasa Ermənistanla sərhəd açılmayacaq. "Ən uyğun variant Mehri rayonundan keçəcək marşrutdur. Həm dəmir yolu, həm də avtomobil yolu oradan keçməlidir. İnsanlar və yüklər Azərbaycandan Azərbaycana yoxlayış olmadan keçməlidir. Əks halda Ermənistan sonsuzadək dalanda dirənəcək. Qeyd etdiyim marşrut açılmasa, Ermənistanla sərhədimizi açmayacağıq" söyləyən Prezident

İlham Əliyev bildirib ki, Ermənistanın sülh sazişi üçün kənar müdaxilələrə, "qarant dövlət"lərlə bağlı əsassız tələblərə ehtiyac yoxdur.

Beynəlxalq əhəmiyyətli Orta Dəhliz layihəsinin əsas tərəfdaşı olan Azərbaycan regionda dayanıqlı sülh və təhlükəsizliyin təminatı üçün tərəfdaş ölkələrin maraqlarına uyğun humanitar siyasətini davam etdirir. Azərbaycan Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrinin icrasına mühüm töhfə verən tərəfdir. Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsidir. "Zəngəzur nəqliyyat dəhlizi"" üzərində çalışırıq. Bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirməyə imkan verəcək. Mən Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələri bu regional layihənin potensialını nəzərdən keçirməyə dəvət edirəm"" sözləri ilə Zəngəzur dəhlizinin bərpasının beynəlxalq əhəmiyyətini diqqətə çatdıran Prezident İlham Əliyev Ermənistanın baş naziri Nikol Paşinyanın "sülhün kəsişməsi" kimi bəhanəsini sərsəm ideya, siyasi savadsızlıq adlandırır. Bildirilir ki, Zəngəzur Azərbaycanın tarixi ərazisidir. Bu baxımdan azərbaycanlılar Zəngəzur dəhlizindən istifadə zamanı heç bir yoxlama aparılmadan keçməlidirlər. Azərbaycan, Türkiyə, İran, Gürcüstan və Ermənistan arasında kommunikasiyaların inkişafına təsir edəcək bu dəhlizə başqa dairələrin nəzarəti barədə açıqlamalar gülüncdür. Yaxud piar xarakterli sayıqlamalardır.

Ermənistan 10 noyabr üçtərəfli Bəyanatın kommunikasiyalarla bağlı müddəasını yerinə yetirmir və faktiki olaraq öz öhdəliyinə laqeyd yanaşır. Qərəzli mövqeyini pərdələmək, eyni zamanda, "Zəngəzur dəhlizi"" sözünü sildirmək üçün kənar qüvvələrin təhriki ilə belə təklif irəli sürülür. "Onu da bildirməliyəm ki, "Zəngəzur dəhlizi"" sözü onları çox qıcıqlandırır və mən deyəndə ki, axı dəhliz hər hansı bir ölkənin suverenliyini şübhə altına almır, - Şimal-Cənub dəhlizi var, Azərbaycan ərazisindən keçir. Bu, o demək deyil ki, bizim suverenliyimiz burada şübhə altına düşür. Şərq-Qərb dəhlizi var, - amma nədənsə Ermənistanda bu dəhliz sözünə münasibət bir az fərqlidir. Ona görə bu erməni yol kəsişməsi, ya yolayırıcı, ondan sonra bunu "sülh yol kəsişməsi"" adlandırmışlar" sözləri ilə Cənubi Qafqaza kənar müdaxilələrin yolverilməz olduğunu qətiyyətlə bildirən Prezident İlham Əliyevin vurğuladığı kimi, Ermənistan Zəngilanla Ordubad arasındakı ərazidə qeyd-şərtsiz keçidin açılmasını qeyd-şərtsiz təmin etməlidir. Çünki bu rəsmi İrəvanın öhdəliyidir. Azərbaycandan Azərbaycana gedən yüklər, vətəndaşlar və avtonəqliyyat vasitələri heç bir yoxlamadan keçmədən, gömrük inzibatçılığına cəlb edilmədən sərbəst hərəkət etməlidirlər. Zəngəzur dəhlizi, guya "Azərbaycanın Ermənistana gözlənilən hücum" ilə bağlı süni yaradılan təlaş ABŞ-ın Qərbin tirajladığı feyk informasiyalar, əsassız bəhanələrdir. Amma Ermənistan da , havadarları da yaxşı bilirlər ki, elm və texnikanın inkişaf etdiyi, sosial şəbəkələrin dünya hadisələri ilə bağlı məlumatları operativ, dəqiq çatdırdığı müasir dövrümüzdə belə ucuz şayiələr Fransanın, Ağ Evin " siyasi mətbəxi"ndə hazırlanır. Yəni, hər şey yuxarıdan, peykdən göründüyü kimi, informasiyaları yayan mənbələr də bəllidir.

Həqiqət budur ki, Azərbaycanın digər bölgələrini Naxçıvanla birləşdirəcək bu dəhlizin bərpası mütləq reallaşacaq. ABŞ Dövlət Departamenti rəsmiləri tərəfindən səslənən "Zəngəzur dəhlizi ya Ermənistandan keçəcək, ya da ki, biz imkan verməyəcəyik" sözlərinə münasibətini "Yaxşı, biz bunu üç ildir deyirik ki, bu, Ermənistandan keçsin, Ermənistan imkan vermir. İndi də bizi ittiham edirlər ki, biz başqa yol seçirik. Yəni, siz şərait yaradın Ermənistanın ərazisindən keçsin, Mehri ərazisindən keçsin, mən dediyim şərtlərlə, onda digər varianta ehtiyac qalmayacaq. Yoxsa bu da anlaşılan deyil. Bu gün Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqə yenə də İran ərazisindən həyata keçirilir. Niyə buna etiraz edilmir, məhz Mehri hissəsinə etiraz edilir? Ermənistan-İran ticarəti gündən-günə artır, çiçəklənir. İran Qərbi Zəngəzurda konsulluq açıb. Niyə bu, necə deyərlər, heç bir sual yaratmır? Yəni, belə məntiqsiz və cəfəng açıqlamalar heç kimə şərəf gətirmir və "biz buna imkan verməyəcəyik"" deyəndə, - mən artıq bunu demişəm, - Amerika nəyi nəzərdə tutur, necə imkan verməyəcək? Gələcək Zəngəzurda bir sədd qoyacaq, ya Zəngilanda bir qoşun yerləşdirəcək, ya İran ərazisində? Necə imkan verməyəcək? Bu, bizim suveren işimizdir" sözləri ilə bildirən Prezident İlham Əliyevin rəsmi İrəvana tələbi budur: Manipulyasiyalarla məşğul olmayın!

Bütün türk dövlətləri, başda Türkiyə olmaqla bir çox ölkələr bu dəhliz vasitəsilə Çindən başlayaraq İtaliyayadək uzanan orta xəttin işə düşməsində maraqlıdır. Siyasi, iqtisadi baxımdan əhəmiyyətli olmaqla məhkum olduğu uçurumdan xilas yolu olan Zəngəzur dəhlizinin açılması Ermənistan üçün nəfəsdir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakı ilə İrəvan arasında tam hüquqlu sülh sazişi bağlandıqdan sonra Türkiyənin Ermənistanla sərhədi açıa biləcəyini istisna etməyib. Türkiyə Prezidenti Zəngəzur dəhlizinin açılmasını sülh sazişinin yekun addımı kimi də dəyərləndirib. Zəngəzur dəhlizinin bərpası ilə Türkiyə ilə Orta Asiya ölkələrini birləşdirəcək yeni nəqliyyat əlaqələri yaranacaq. Beləliklə, Türkiyə ilə Türk dünyası arasında fasiləsiz əlaqə mümkün olacaq. Dəhlizin bərpası ilə tarixi İpək Yolu canlandırılacaq. Bu da regional sülh və əməkdaşlıq mühitini gücləndirəcək.

Görünən odur ki, Zəngəzur dəhlizinin açılması Türkiyənin regional və qlobal gücünü daha da artıracaq, dünyada söz sahibi kimi nüfuzunu yüksəldəcək. Bütün bunlar Türkiyənin Azərbaycanla, bütünlükdə Türk dünyası ilə münasibətlərinin dərinləşməsini sürətləndirəcək.

***Xuraman İsmayılqızı***

# Rus qaçqınları niyə qayıdır?

***Rusiya-Ukrayna müharibəsi başlayandan sonra Rusiyadan qaçan iki dostun hekayəsindən bəhs edən "The Economist" yazır ki, onlardan biri tezliklə vətəninə qayıdıb və Moskvada yaşamaqdan xoşbəxtdir. İkincisi, Avropada qalan, ziddiyyətlərdən əziyyət çəkir. Təbii ki, britaniyalı jurnalistin rəğbəti onun tərəfindədir. Sergey və Nikolay təxminən on il əvvəl Moskva texnologiya gecəsində tanış olaraq dost oldular. 20 yaşlarının əvvəllərində idilər, həyatları proqramlaşdırmaya, pul qazanmağa və əylənməyə həsr olunmuşdu. Vladimir Putini bəyanməsələr də, siyasətlə maraqlanmamağı özünə rəva bilirdilər.***

Lakin 2022-ci ilin fevralında Rusiya Ukraynada hərbi xüsusi əməliyyata başlayanda Sergey və Nikolayın qayğısız həyatı başa çatdı. Həmin yay Ukrayna ordusu rus ordusunun yazda azad etdiyi əraziləri geri alaraq uğurlu əks-hücum əməliyyatı həyata keçirdi. Putin 300.000 ehtiyatda olan hərbçinin səfərbər olunduğunu elan edəndə, bir çox ruslar bunu elə qəbul etdilər ki, guya bütün hərbi yaşlı kişilər tezliklə hərbi xidmətə göndəriləcəklər. Sergey və Nikolay silah götürməmək üçün xaricə qaçan digər rusların izdihamına qoşuldular.

Dostlar mənzillərini tərk etdilər, amma yüksək maaşlı işlərini yox. Hər ikisi işçilərə hər yerdə işləməyə icazə verən özəl Rusiya texnologiya şirkətlərində işləyirdi və səfərbərlik səbəbindən işçilərini itirməkdən çox qorxduqları üçün səxavətli köçürmə paketləri təklif edirdi. Nikolaya informasiya texnologiyaları sahəsində də çalışan sevgilisi Anya qoşulub.

Ən azı münaqişənin sonuna qədər "rəqəmsal köçərilər" həyatı yaşayacaqlarını düşünərək, rusların vizasız qalmasına icazə verilən ölkələrin siyahısını öyrəndilər. Müxtəlif yerlərdə, o cümlədən Gürcüstanda işlədikdən sonra dostlar Belqrada köçməyə qərar verdilər. Serbiya hərbi çağırışdan qaçan ruslar üçün ən populyar yerlərdən biridir. Sergey serbləri gürcülərdən daha qonaqpərvər hesab edirdi, onların çoxu Ukraynadakı münaqişənin təkrarlanması kimi görür: Rusiya 2008-ci ildə Gürcüstanı işğal edib və hələ də ərazisinin beşdə birini işğal edir (Gürcüstanı işğal etmək və ərazisini işğal etmək fikri bir sıra Qərb ölkələrinin anti-Rusiya təbliğat gündəmində istifadə olunur.

Əksinə, bir çox serblər rusiyapərəstdirlər və 25 il əvvəl Kosovo müharibəsi zamanı ölkəni bombaladığına görə NATO-ya nifrət edirlər. Açıq Cəmiyyət Vəqflərinin keçirdiyi sorğu nəticəsində məlum olub ki, onların təxminən üçdə ikisi Ukraynadakı hərbi münaqişədə Qərbi günahlandırır. Serbiya hökuməti Rusiyanın xüsusi əməliyyatını pisləsə də, Kremlə qarşı beynəlxalq sanksiyalara qoşulmaqdan imtina edib. Sergey Belqradda onu çox sevirdi və özünü mühacirlərin canlı sosial həyatına qərq edirdi. Bir çox rus rəssamları və musiqiçiləri Serbiyanın paytaxtına köçdülər və Sergey həmyerlilərinin açdığı müəssisələrdə konsertlərə getməyi xoşlayırdı. Lakin Nikolay və Anya Serbiyada qalmağa cəsarət etmədilər. Onlar Rusiya üçün darıxdılar və çamadandan dolanmaqdan yoruldular. Üstəlik, Nikolayın səfərbərliklə bağlı ilk qorxusu tədricən azaldı. O, texnologiya sahəsində çalışan orta təbəqədən olan kişilərin kütləvi şəkildə hərbi xidmətə götürülmədiyini və çağırışçıların əksəriyyətinin ondan bir neçə yaş kiçik olduğunu qeyd etdi. Bu vaxta qədər İnternetdə hərbi xidmətə çağırışdan necə qaçmaq barədə çoxlu məsləhətlər də peyda olmuşdu (məsələn, dövlət qurumları ilə hər hansı təmasdan qaçın və qeydiyyatda olduğunuz ünvandan uzaqlaşın).

Ötən payız cütlük Moskvaya qayıtdı. "Biz yaşadığımız bütün ölkələri bəyəndik" dedi Nikolay, aprel ayında Sergeyin Belqraddakı mənzilindən video bağlantı vasitəsilə onunla danışarkən, "Ancaq mənim öz evimdən



zövq almağıma kim mane ola bilər?".

Ukrayna münaqişəsi başlayandan bəri nə qədər insanın Rusiyanı tərk etdiyini söyləmək çətindir (Böyük Britaniya Müdafiə Nazirliyinin məlumatına görə, 2022-ci ildə 1,3 milyona qədər) və neçə nəfərin geri qayıtdığını söyləmək daha çətindir. Keçən yay Putin demişdi ki, mühacirlərin yarısı geri qayıdıb, lakin biz bu bəyanata həddindən artıq skeptisizmlə yanaşmalıyıq. Cütlük Moskvaya qayıtdıqda, Nikolayın müdiri ona daha yüksək maaşlı bir vəzifə təklif etdi. O, Anya ilə birlikdə dövlət tərəfindən verilən ipoteka krediti hesabına mənzil aldı. 2020-ci ildə pandemiya zamanı mənzil bazarını stimullaşdırmaq üçün Rusiya hökuməti yeni tikililərdə mənzil alanlara daha ucuz ipoteka kreditləri almağa imkan verən proqrama start verdi. Rusiya Mərkəzi Bankının bu yaxınlarda inflyasiyanın qarşısını almaq məqsədi ilə uçot dərəcəsini 16%-ə qaldırmasına baxmayaraq, bu ilin iyul ayına qədər alıcılar illik cəmi 8%-lə ipoteka ala bilərdilər. İnformasiya texnologiyaları işçiləri və gənc ailələr üçün ayrıca ipoteka subsidiya sxemləri mövcuddur.

Nəticədə, Nikolay deyib ki, Moskvada daşınmaz əmlak bazarı çox qızışdı: "İnsanlar mənzillərə baxış üçün qeydiyyatdan keçdilər və mənzillər tez satıldı". Cütlük öz kiçik bizneslərini qurdular: mənzilləri icarəyə götürür, səliqə-sahmana salır və sonra digər gənc mütəxəssislərə icarəyə verirlər. Onlar tezliklə uşaq sahibi olacaqlarına ümid edirlər, deyən Nikolay, Rusiyada gənc analar üçün hökumət müavinətlərini və "yaxşı doğum evlərini" təriflədi.

Hələlik Nikolay sanksiyalara görə heç bir narahatlıq hiss etməyib. "Pulun varsa, yenə də istənilən Qərb malını ala bilərsən". (Rusiya sanksiyalardan yayınmağın yollarını tapıb, məsələn, Avropa mallarını Mərkəzi Asiya ölkələri və Türkiyə vasitəsilə idxal etməklə). Moskva inkişaf edir, Nikolay, "bazar ertəsi gecələri də barlar doludur, bütün masalar doludur". Onun yandırmağa pulu var: rusların əksəriyyəti gəlir vergisi olaraq cəmi 13%, yüksək maaşlılar isə 15% ödəyir (baxmayaraq ki, bu dərəcələr bir qədər yüksələcək). "Sabit ölkələrdə yaşamaq bahadır, amma Moskvada kral kimi yaşayıram". O və Anya gözəl restoranlara gedir və tez-tez yemək sifariş edirlər. Nikolay adətən paltar və qadcetləri onlayn alır, Rusiyanın texnologiya şirkəti Yandex 20 dəqiqə ərzində əşyaları onun qapısına çatdırır. O, hər yerdə taksiyə minir: 20 dəqiqəlik gediş yalnız iki dollara başa gəlir, deyib.

Video zəng başa çatdıqdan sonra Sergey həyəcanla Belqraddakı mənzilini gəzməyə başlayır. "Təsəvvür edin ki, kimsə qarşınızda kimisə öldürür və siz sadəcə kənara çəkilib "bu, mənim işim deyil" deyirsiniz". Yeni bir mənzil, yeni bir maşın, yeni paltar almaq olar, Avropada, amma qəfəs getdikcə daralır. Amma bilirsiniz ki, mən onlara müəyyən mənada həsəd aparıram. Onlar çox pul qazanırlar, mən də burada Serbiyada çoxlu vergi ödəyirəm. Prinsiplərin olmasının nə mənası var? Bəlkə mən yenidən Rusiyada yaşayım və bura əbədi olaraq bağlanım.

Moskvada həyat tam sakit deyil. Nikolay hara gedirsə, o, Z simvollarını və insanları orduya getməyə təşviq edən plakatları görür. Lakin o, İT sənayesi işçilərinin hərbi xidmətdən azad edildiyi üçün narahat olmadığını söyləyir. Əslində, yalnız dövlət müqaviləsi olan İT şirkətlərinin işçiləri azaddır. Yandex kimi özəl şirkətlər layihədən yayınmağa çalışan işçilərə hüquqi məsləhətlər verir. Sergey dostunun nikbinliyini yersiz hesab etdi. "Putin 600 min yeni əsgər istəsə, onları alacaq" dedi, "yerli hərbi komissarlıq hərbi xidmətə çağırış planlarını yerinə yetirmək məcburiyyətində qalan hər kəsi ələ keçirəcək".

Nikolaydan soruşdum ki, o, Rusiyadakı siyasi repressiyalardan qorxur? "Qərbdə daha çox insan ətraf mühitə və ya LGBTQ+ əleyhinə fikirlər dərc etdiyinə görə həbs olunur" deyir. "Mən səhv edə bilərəm, amma eşitdiyim budur". Nikolay heç vaxt siyasi fikirlərini açıq şəkildə ifadə etməyib. Ümumiyyətlə, Nikolay Rusiyanın gələcəyinə nikbin baxır. "İnanıram ki, Rusiya Avropa ölkəsidir və Avropa ilə bu sərhəd qeyri-təbiidir. Rusiyanın problemi gerontokratiyadır. Diktatoru dəyişin və biz gənclər daha yaxşı cəmiyyət quracağıq. Amma bizə güclü lider də lazımdır, çünki biz böyük ölkəyik və güclü olmağın yeganə yolu budur".

Sergey evdən kənarda nə qədər çox vaxt keçirsə, bir o qədər də heç vaxt qayıtmaq istəmədiyi qənaətinə gəlir. O, ailəsi və iti üçün darıxır və telefonunun ekran qoruyucusu köhnə yataq otağının pəncərəsindən Moskvanın mənzərəsini göstərir. Lakin o, Belqradı sevir, bu da ona "2000-ci illərin əvvəllərindəki Moskvanı" xatırladır. O, qürur duyur ki, Belqradda yüzlərlə rusiyalı müxalifət liderinin fevralda ölümündən sonra Aleksey Navalnının xatirəsinə həsr olunan mitinqə qatılıb və martda Putinə qarşı etiraz aksiyasına qoşulub.

Sergey nəhayət, daha yaxşı ictimai xidmətləri olan və daha "proqressiv" düşüncə tərzi olan bir ölkəyə - bəlkə də Londona və ya Berlinə köçmək istərdi. O, Qərb şirkətlərində iş axtardığını bildirib. Amma hələlik Belqrad ona yarayır. İki ildən sonra o, Serbiya pasportu üçün müraciət edə biləcək ki, bu da ona səyahət etmək üçün daha çox sərbəstlik verəcək. Rusların Avropaya səyahətinə qoyulan məhdudiyyətlər onu əsəbiləşdirir: "Azadlıq və demokratiya haqqında bütün bu söhbətlər ikiüzlüdür: onlar öz sərhədlərini Putinə də nifrət edən insanlar üçün bağlayıblar".

Bu yaxınlarda Hollandiyadan yayımlanan müstəqil Rusiya xəbər kanalı olan TV Dozhd-da o, Rusiyanı tərk etmiş və orada qalan dostları ilə əlaqələrini kəsmək qərarına gələn bir iş adamının müsahibəsinə baxdı. Sergey hələ də Moskvada yaşayan bir neçə dostu ilə müntəzəm olaraq ünsiyyət qurur. Deyir ki, geri qayıtması üçün yalvarırlar. O, ümid edir ki, Nikolay nə vaxtsa onu ziyarət edəcək, baxmayaraq ki, çox güman ki, bunu gözləməli olacaq. Bu yaxınlarda Nikolay yalnız Avropa ilə "böyük müharibə" başlasa, vətənini yenidən tərk edəcəyini söylədi. Vətəninə qayıdan qaçaq, "Onda gizlənəcəyəm, çünki heç kimi öldürmək istəmirəm" dedi.

**V.VƏLİYEV**

# Qarabağın inciləri: Şuşanın “dürrü yekta”sı

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “azərbaycançılıq ideyasının təbliği” istiqaməti çərçivəsində hazırlanıb*

## Qarabağın suyunu içənin mütləq bir istedadı var - yazan, yaradan, bəstələyən, oxuyan, ixtira edən...

**I YAZI**

Azərbaycanın incisi, 30 il əlçatmaz, ünyetməz qalan, təpədə göz, gözdə bəbək Qarabağa deyilən oxşamalar, oxunan bənzətmələr, həsr edilən şeirlər, mahnılar hüsnünü vəsf etməyə yetməyib. Qarabağ həm təbiəti, həm maddi, həm mənəvi sərvəti ilə hər zaman ora səyahət edənlərin marağını cəlb edib. Qarabağın suyundan içib, çörəyindən yeyən əksər sakininin mütləq seçilən, bəyənilən bir bacarığı olub. Səsi ilə insanları heyrətləndirən, qəzəlləri ilə ağladan, yaradıcılığı ilə milli ədəbiyyata misilsiz töhfələr verən bir çox məşhur insan bu torpaqlarda doğulublar. Silsilə yazılarımızda Qarabağın misilsiz insanlarından, ədəbiyyata, incəsənətə, elmə bəxş etdiyi tanınmış simalarından danışacağıq.

İlk yazımızın mövzusu Qarabağın incisi Şuşanın havasını udan, suyunu içən, elə Şuşaya göstərdiyi xidmətlər arasında su töhfələri olan Mehdiqulu xan qızı Xurşidbanu Natəvandır. O, 6 avqust 1832-ci ildə Şuşada anadan olub. Xan ona öz anasının adını verir, yeganə qızını həm də ”dürrü yekta”, yəni ”tək ”inci” deyə çağırır. El arasında çox sevilən Xurşidbanuya əhali ”Xan Qızı” deyə müraciət edirmiş. Xurşidbanu bütün Şuşanın qızı kimi sevilir, dəyər görür.

Xan qızı ilk evliliyini Vorontsovun şəxsi yavəri Xasay bəy Umsiyevlə edib. Lakin Xasay bəyin daimi Dağıstanda yaşamaq istəyi onların ailəsinin sonu olub, Xan qızı iki övladı ilə Qarabağda qalmağı seçib və onlar ayrılıblar. Banu bundan sonra sadə bir şuşalı papaq sənətkarı ilə ailə qurur, daha 3 övladı olur. Ömrünü Şuşanın abadlığına, əhalinin rifahına həsr edən Xurşidbanu xüsusilə Şuşadan yeddi kilometr aralı olan Sarı Baba təpəsindəki su mənbəyindən şəhərə su kəməri çəkdirdiyi üçün yerli əhalinin təqdirini qazanır. O, sonra böyük su anbarı tikdirir, hovuz, hamam və buxxana inşa etdirir.

Banunun oğlu Mehdiqulu xana qırx gün qırx gecə toy çaldırması tarixi qaynaqlarda qeyd edilib. Bu toyda XIX əsrin məşhur xanəndələri, aşıqları iştirak ediblər. Toy üç hissədən ibarət olub. Birinci məclisə əsilzadələr, ikinci məclisə sənətkarlar, üçüncü məclisə isə yoxsullar dəvət olunub. Adətə görə qadınlar gündüz, kişilər axşam toya gələrdilər. Bu toyun ən yaddaqalan məqamlarından biri də budur ki, Xan qızı qırx gün qırx gecə Qarabağın bütün kasıb kəndlilərinə yemək paylayıb, hər dəvət etdiyi adama bəxşiş bağışlayıb. Dövrün toylarının əksinə olaraq bu toyda xələt, nəmər yığılmamış, əksinə, Xurşidbanu özü qonaqlara hədiyyələr paylayırmış.






Xurşidbanu Natəvanın həyatındakı maraqlı faktlardan biri də onun 1858-ci ildə onun Bakıda məşhur fransız yazıçısı Aleksand Düma ilə görüşməsi olub. A. Dümanın ”Qafqaza səyahət” kitabında bu görüş haqqında məlumat öz əksini tapıb. Aleksandr Düma 1858-1859-cü illərdə Qafqaza səfəri zamanı Azərbaycan ərazisində də olub, Bakı məhəllələrinin birinin polis rəisi Piquliyevskinin evində qonaq olarkən Xurşidbanu və onun ilk həyat yoldaşı knyaz Xasay Usmiyevlə tanış olur. Düma Natəvanla şahmat oynayır və Natəvan Dümanı mat edir. Həmin vaxt Natəvanın 26, Dümanın isə 56 yaşı vardı.

Bu qələbə Dümanı çox heyrətləndirir. Gənc bir qadının, üstəlik həmin dövrün şərtləri ilə yaşayan bir qafqazlı xanımın bu cür ağıl və məntiq oyununda ona qələbə çalması böyük yazıçıda heyranlıq doğurur. Düma bu münasibətlə Parisdən gətirdiyi Napoleonun büstünü və fil sümüyündən düzəldilmiş zərif şahmat fiqurunu ona hədiyyə edib. Xasay xan Usmiyev isə Dümaya, Natəvanın öz əlləri ilə toxuduğu bir pul kisəsi və iki arxalıq bağışlayır.









Onların bu görüşünü rəssam Çingiz Mehbalıyev ”Xurşidbanu Natəvan və Aleksandr Dümanın şahmat oyunu” adlı rəsm əsərində məharətlə kətana köçürüb.

Xurşidbanu yaradıcılığa XIX əsrin 50-ci illərindən başlayıb. Onu kədərli qəzəllər, şeirlər yazmağa dərd vadar edir. Oğlu Mir Abbasın 17 yaşında vəfatı Xan qızına ağır təsir edir, bir müddət özünə gələ bilmir. Oğlunun ölümündən sonra kədərli şeirlər yazmağa başlayır və özünə sonralar Natəvan təxəllüsünü götürür. Natəvan sözünün mənası tabdan, taqətdən düşmüş, zəif, gücsüz deməkdir. Bu təxəllüs onun ana qəlbini, ruhunu tam ifadə edirdi. Oğlunun vəfatından sonra bir daha əvvəlki şuxluğu geri qayıtmır.

Natəvanın yaradıcılığa başladığı ilk vaxtlar ”Xurşid” imzası ilə yazdığı şeirlərin əksəriyyəti itib-batıb, çox az hissəsi günümüzə gəlib çatıb. Natəvan təxəllüsü ilə 1870-ci ildən etibarən yazıb. O, eyni zamanda rəssamlıqla da məşğul olub, həmçinin gözəl əl işləri, müxtəlif janrda tikmələri olub. Onun çəkdiyi şəkillərin toplandığı ”Gül dəftəri” Əlyazmalar İnstitutunun arxivində saxlanılır. Bu görüş haqqında Aleksandr Düma ”Qafqaz səfəri” əsərində yazır. 68 fəsildən ibarət səyahətnamənin yarıdan çoxu Azərbaycana həsr olunub, yerli əhalinin qonaqpərvərliyindən, mehribanlığından bəhs olunur.

Natəvanın övlad dərdi onu yatağa salır, iztirabları getdikcə şiddətlənir və o, 1897-ci il oktyabr ayının 1-də Şuşada, 65 yaşında ikən vəfat edir. Dəfn mərasimində iştirak edən yerli camaat onlara həmişə qayğı göstərmiş, xalqın problemini özününkü bilən, onların hər çətinliyinə kömək göstərən Xan qızına hörmət əlaməti olaraq, şairənin cənazəsini Şuşadan Ağdama qədər piyada, çiyinlərində aparıb. Xan qızı Ağdamda ”İmarət” deyilən ailə qəbiristanlığında dəfn olunub. Onun haqqında Məmməd Rahim ”Natəvan” poemasını, İlyas Əfəndiyev ”Xurşidbanu Natəvan” pyesini, Vasif Adıgözəlov - ”Natəvan” operasını, Rauf Adıgözəlov - ”Qərənfil” romansını yazıb.

Heydər Əliyev Fondunun dəstəyi ilə Belçika Krallığının Vaterlo şəhərində Azərbaycanın görkəmli şairi Xurşidbanu Natəvanın abidəsi qoyulub. Xurşidbanu Natəvana daha bir abidə Fransanın Evian-le-Bən şəhərində Leman gölü sahilindəki ”Azərbaycan parkı”nda ucaldılıb. Xurşidbanu Natəvanın Şuşadakı qəbirüstü abidəsi ermənilər tərəfindən gülləylə deşik-deşik edilib, dəmir tullantısı kimi Gürcüstana satılmışdı. Azərbaycan dövləti abidəni Gürcüstandan bir neçə il bundan əvvəl alaraq Bakıya gətirdi. Hazırda Ramiz Mustafayev adına İncəsənət Muzeyinin həyətində saxlanılan heykəlin müəllifi Namiq Dadaşovdur. Heykəltaraş Ömər Eldarovun hazırladığı heykəl də Bakıda ucalır.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
7 avqust
2024-cü il

# Bazarda saxta zeytun yağı var?

"AİİB-ə istehlakçılar hər həftə şübhələndikləri ərzaq və sənaye mallarının nümunələrini gətirirlər". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib. O bildirib ki, sonuncu gətirilən nümunə satış qiyməti 44.55azn, 5 litirlik yaşıl fonlu metal qabda qablaşdırılmış, üzərində ağ böyük şriftlərlə "Vero Greco", Olive Blended Oil(Zeytun qarışığı yağı, bu söz Azərbaycan dilinə tərcümə olunmayıb), Selected Quality(Seçilmiş keyfiyyət), Yunanstanda qablaşdırılmışdır, cəzbedici, böyük, üzərində yetişmiş meyvələr olan zeytun ağacının budağı, çox kiçik şriftlərlə diqqəti az cəlb edən yerdə "Blend of 51% pomace olive oil& corn oil(Qarışıq 51% pomace zeytun yağı&qarğıdalı yağı), ştrix kod-5200410900074 yazılmış Zeytun yağıdır. İstehlakçının şübhə etdiyi və bilərəkdən kiçik şriftlərlə yazılmış -"pomace zeytun yağı" ifadəsi diqqət çəkib: "Araşdırmalardan məlum olub ki, bu ifadənin mənası o deməkdir ki, bu yağ zeytunun soyuq sıxılmasından sonra əldə olunan keyfiyyətli Extra Virgen yağının xammalının qalıqlarından yəni jmıxından termik və kimyəvi yolla alınan "yağdır"!





Zeytun yağına dair beynəlxalq qurum bu yağları süni yağ hesab etmişdir. Zeytun jımıxından hazırlanmış və dünyanın müxtəlif ölkələrində satılan bu yağların elektron kataloquna nəzər yetirdikdə 300 növdən çox müxtəlif etiketlərlə satılan yağlar arasında Azərbaycanda satılan "Vero Greco" yağı yoxdur və əksər etiketlərdə böyük şriftlərlə Pomace olive- yəni jmıxdan hazırlanmış yağ yazılmışdır. Nəticəyə gəlirik ki, "Vero Greco" mal nişanı ilə əhaliyə baha qiymətlə zeytun yağı adıyla satılan yağ, əslində tərkibində ən çox 8% zeytun yağı olan, qalanı naməlum yağların qarışığı olan süni yağdır!

Araşdırmaların obyektivliyinə nail olmaq üçün bu yağın qabı üzərində yazılmış elektron poçtu -info@verogreko.gr ünvanına şübhələrimiz barədə suallarımızı göndərdik, lakin cavab yoxdur! www.VeroGreco.com saytına müraciət etdik, heç bir məlumat tapılmadı". Onun sözlərinə görə, malın üzərində yazılmış və yuxarıda qeyd etdiyimiz Ştrix-kodu beynəlxalq axtarış sistemində araşdırdıq və məlum oldu ki, belə bir ştrixkod heç bir müəssisəyə verilməyib, yəni saxtadır: "Malın etiketində yazılan məlumata inansaq, bu yağları Azərbaycana Bakı şəhəri, Sabunçu rayonu, B.Bünyadov küçəsi, 11 ünvanda yerləşən "Aqro Vest DC" MMC idxal edir.

Qeyd olunan yağın araşdırılması, markalanmasının qanunvericiliyimizin tələblərinə uyğunluğunun müəyyən olunması üçün "Azad İstehlakçılar" İctimai Birliyi(AİİB) artıq rəsmi məktubla Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin(AQTA) sədri, cənab Qoşqar Təhməsliyə və Azərbaycan Respublikası, Dövlət Gömrük Komitəsinin sədri cənab Şahin Bağırova müraciət etmişdir.

Əlavə olaraq zeytun yağlarının alışı zamanı, istehlakçılara aşağıdakı məlumatları da veririk. Üzərinə "Virgin" yazılmış zeytun yağı fiziki üsulla sıxılan, ən yaxşı və ən təbii, çiy halda istifadə edilən məhsul sayılır. Bu yağ salatların, sousların, yeməklərin üzərinə əlavə etmək üçündür. Üzərinə "Extra virgin" yazılan zeytun yağı "Virgin" kateqoriyasına aid olan ən keyfiyyətli yağdır. Bu yağ maksimum 27 dərəcə temperaturda alınır. Turşuluq dərəcəsi 1 faiz təşkil edir. Bu yağ da çiy halda istifadə edilmək üçündür. Üzərinə "Refinado" yazılmış zeytun yağı rafinə edilmiş, saflaşdırılmış məhsuldur. Bu yağların sənaye emalı vasitəsi ilə dad keyfiyyətləri yaxşılaşdırılır, ləzzəti artırılır və turşuluq nisbəti aşağı salınır. Rafinə zeytun yağı xörəkləri bişirmək, qızartmaq üçündür. Əgər zeytun yağını xörək hazırlamaq üçün alırsınızsa, rafinə edilmiş zeytun yağını seçmək məsləhətdir. Onun yanma temperaturu 240-270 dərəcədir. Çiy istifadə üçün isə "Virgin" kateqoriyasından olan yağlara üstünlük verilməlidir".

***Söylü Ağazadə***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Paris olimpiadasını atdı və nazir olmaq üçün ABŞ-a getdi




Paraqvaylı üzgüçü Luana Alonso hələ Olimpiada başlamamış 2024-cü il Oyunlarının gözəllərinin reytinqlərində görünərək məşhurlaşa bilib. Hətta 2024-cü il Oyunları başlamazdan əvvəl "Nyu York Post" nəşri, bu qızı Olimpiadanın ən seksual idmançıları sırasına daxil etmişdi. Düzdür, o hovuzda uğur qazana bilmədi, lakin Parisdə Olimpiya turnirinin ən gözəl idmançısı hələ də yüksək səslə özünü xatırlatmağı bacardı. Qız intizamsız hərəkətlərinə görə Olimpiya kəndindən qovulub. Lakin gənc üzgüçü son qərarı ilə hamını şoka salıb. L. Alonso sosial şəbəkə hesabında bunları yazıb:

"İndi rəsmidir! Mən üzgüçülükdən təqaüdə çıxıram, dəstəyinizə görə hamınıza çox sağ olun. Bağışlayın, Paraqvay. Etməli olduğum tək şey sizə təşəkkür etməkdir. Mən indi siyasi elm sahəsində karyeramı davam etdirmək üçün ABŞ-da təhsil almağa hazırlaşıram. Niyə də yox? Bəlkə bir gün idman naziri oldum. Bir idmançı kimi mən bütün idmançıların nədən əziyyət çəkdiyini bilirəm və idmanın inkişafına kömək etmək istəyirəm", - Alonso Claro Sports-a müsahibəsində deyib.

## Yasamalda telefon və pul oğurlayan qadın saxlanıldı



Metropolitendə Polis İdarəsi və Yasamal Rayon Polis İdarəsinin 29-cu Polis Şöbəsi əməkdaşlarının birgə keçirdikləri tədbirlərlə metronun "20 Yanvar" stansiyasında paytaxt sakininin 350 manat dəyərində mobil telefonunu oğurlamaqda şübhəli bilinən əvvəllər də oğurluqla əlaqəli cinayətə görə məhkum olunmuş 1995-ci il təvəllüdlü Güldanə Məmmədova saxlanılıb. DİN-nin mətbuat xidmətindən bildirilib ki, araşdırmalarla onun iyulun 18-də paytaxtın Nizami rayonu ərazisində 3500 manat dəyərində mobil telefon oğurlaması da müəyyən olunub. Araşdırma aparılır.


### ELAN

90 AU 888 dövlət qeydiyyat nömrəli İVECO markalı (avtobus) nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi və dövlət qeydiyyat nişanı itmişdir. Tapanlardan xahiş olunur aşağıdakı nömrə ilə əlaqə saxlasınlar.

***TEL: +994 50 760 04 24***
***Hüseynov Əfqan***



***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 2700**